# UŞAQLAR SİZİN ÜÇÜN -2-

HARUN YƏHYA

Q

# MÜNDƏRİCAT


- Sinan ilə termitlər
- Cem ilə rəngli kəpənəklər
- Ağacdələn ilə Serhat
- Hakan ilə qağayı
- Sərdar ilə işıldaquş
- Bora ilə yaşıl qurbağa
- Serkan ilə uzun ayaqlı leylək
- Emre ilə suiti
- Emre ilə buqələmun
- Bora ilə it
- Əhməd ilə at
- Levent ilə kenquru
- Uğur ilə hörümçək
- Serkan ilə ördək
- Əli ilə dəvəquşu
- Can ilə bal xoşlayan sevimli ayı
- Seda ilə kirpi
- Tolqa ilə nəhəng qütb ayıları
- Ömər ilə balıq
- Kərəm ilə Tolqa

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə  öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ƏZİZ UŞAQLAR

· Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin tənəzzülünə xüsusi bir yer ayrılmasının səbəbi, bu nəzəriyyənin hər cür din əleyhdarı fəlsəfənin əasını meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm, 140 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də bu nəzəriyyənin bir yalan olduğunu göz qabağına gətirmək çox əhəmiyyətli bir imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlara çatdırıla bilməsi isə zəruridir. Bəzi oxucularımız bəlkə tək bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də bütün kitablarımızda bu mövzuya xülasə də olsa bir fəsil ayrılması uyğun görülmüşdür.

· İfadə edilməsi lazım olan bir başqa xüsus, bu kitabların məzmunu ilə əlaqədardır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri istiqamətində izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilir. Allahın ayələri ilə əlaqədar bütün mövzular, oxucunun ağlında heç bir şübhə və ya suala yol verməyəcək şəkildə izah olunur.

Bu izahat əsnasında istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların kiçikdən böyüyə hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat hesabına, kitablar “bir dəfədə oxunan kitablar” deyiminə tam olaraq uyğun gəlir. Dini rədd etmək məsələsində qəti bir rəftar nümayiş etdirən insanlar belə, bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmirlər.

· Bu kitab və müəllifin digər əsərləri, oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzuyla əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə nəql etmələri baxımından faydalı olacaq.

· Bununla yanaşı, yalnız Allahın rizası üçün yazılmış olan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük bir xidmət olacaq. Çünki müəllifin bütün kitablarında isbat və razı salan tərəflər olduqca güclüdür. Buna görə də dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

· Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatlarının əlavə edilməsinin isə əhəmiyyətli səbəbləri vardır. Bunun hesabına kitabı əlinə alan adam, yuxarıda danışdığımız xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsər olduğunu görəcək. İmani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir mənbə potensialının olduğuna şahid olacaq.

· Bu əsərlərdə, digər bəzi əsərlərdə müşahidə olunan, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəbə və hörmətə diqqət edilməyən üslublara, sıxıntı verən ümidsiz, şübhəçi və ümidsizliyə aparan izahatlara rast gələ bilməzsiniz.

# Sinan ilə termitlər

Günəşli bir bazar günü idi. Sinan, müəllimi və sinif yoldaşlarıyla birlikdə gəzintiyə çıxmaq üçün meşəyə getmişdi.

Sinan və yoldaşları gizlənpaç oynamağa başlamışdılar.

Elə həmin vaxt Sinan, "diqqətli ol!" deyə bir səs eşitdi. Sinan səsin hardan gəldiyini başa düşə bilmədən sağa-sola baxmağa başladı. Amma ətrafında heç kim yox idi.

Sonra yenə eyni səsi eşitdi. Bu dəfə səs "Mən burda, aşağıdayım" dedi.

Sinan ayağının dərhal yanında qarışqaya bənzər bir canlının olduğunu fərq etdi.

Sinan: Sən kimsən?

Termit: Mən bir termitəm.

Sinan: Termit adında bir canlı olduğunu heç eşitməmişdim. Bəs sən tək başınamı yaşayırsan?

Termit: Xeyr, biz çox böyük qruplar halında, böyük yuvalarda yaşayırıq. İstəsən bunlardan birini sənə göstərə bilərəm.

Termitin göstərdiyi şey pəncərələri olan yüksək bir binaya bənzəyirdi.

Sinan: Bu nədir?

Termit: Budur bu bizim evimizdir. Biz bu evləri özümüz hazırlayırıq.

Sinan: Amma sən balacasan. Əgər yoldaşların da sənin kimidirsə necə belə bir yer hazırlaya bilərsiniz.

Termit: Sinan, təəccüblənməkdə çox haqlısan. Həqiqətən də bizim kimi kiçik canlıların belə yerlər inşa etməsi çox təəccüblü bir şeydir. Amma unutma ki, bu hamımızın yaradıcısı olan Allah üçün çox asan bir işdir.

Bir də Sinan, evimizin hündür olmaqdan başqa bir çox xüsusiyyətləri də var. Məsələn, biz yaşadığımız bu yerlərdə xüsusi uşaq otaqları, göbələk istehsaletmə yerləri və kraliça otağı da inşa edərik. Üstəlik, evlərimizə ventilyasiya sistemi hazırlamağa da laqeyd yanaşmarıq. Beləcə, yuvamızdakı istilik və rütubəti tənzimləyərik. Bir də unutmadan bunu da qeyd edim, bizim gözlərimiz görməz, Sinan.

Sinan: Belə kiçik və gözləri görməyən canlılar olduğunuz halda, deməli insanların inşa etdiyi hündür binalara bənzər yerlər inşa edirsiniz. Yaxşı, amma bütün bunları etməyi necə bacarırsınız?

Termit: Əvvəlcə də dediyim kimi, bizə bütün bu fövqəladə qabiliyyətləri verən Allahdır. O bizi bütün bunları edə biləcək şəkildə yaratmışdır. İndi Sinan, artıq yuvama qayıdıb yoldaşlarıma kömək etməliyəm.

Sinan: Oldu, mən də tezliklə gedib müəllimimiz və yoldaşlarıma sizlər haqqında öyrəndiklərimi izah etmək istəyirəm.

Termit: Yaxşı, Sinan əlvida. Yenidən görüşmək üzrə.

# Cem ilə rəngli kəpənəklər

**Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var...**

**(Muminun surəsi, 21)**

Cem həftə sonu tətilində babasıgilə getmişdi. İki gün çox tez keçmiş və atası onu almaq üçün gəlmişdi. Cem çoxdan babasıyla vidalaşıb, avtomobilin oturacağında əyləşmişdi. Atasının əşyaları daşımasını gözləyərkən, şüşədən çölü seyr edirdi. Bir az qabaqdakı çiçəyin üstündən bir kəpənək qanadlandı və avtomobilin şüşəsinə qondu.

Kəpənək: Deməli, artıq evinə qayıdırsan, eləmi Cem?

Cem: Sən məni tanıyırsanmı?

Kəpənək: Əlbəttə ki, tanıyıram. Babanın qonşularına səni tanıtdığını eşitmişdim.

Cem: Niyə daha əvvəl yanıma gəlmədin.

Kəpənək: Gələ bilmədim, çünki mən bağçadakı ağacın üstündə bir baramanın içindəydim.

Cem: Baramamı? O da nədir?

Kəpənək: Biz kəpənəklər yumurtadan kiçik bir tırtıl kimi çıxarıq. Yarpaqları gəmirərək qidalanarıq. Sonra bədənimizdən ifraz olunan bir mayedən iplik kimi istifadə edərək ətrafımıza çəpər çəkərik. Hördüyümüz bu paketə "barama" deyilir. O paketin içində bir müddət böyümək üçün gözləyirik. Oyanıb baramadan çıxdıqda artıq rəngli qanadlarımız olar. Həyatımızın bundan sonrakı hissəsini uçmaqla və çiçək tozlarıyla qidalanmaqla keçirərik.

Cem: Yəni, bütün o rəngli kəpənəklər balaca olduqları vaxt qanadı belə olmayan bir tırtıl idimi?

Kəpənək: Bu budağın üstündəki yaşıl tırtılı görürsənmi?

Cem: Bəli gördüm, iştahla bir yarpaq gəmirir.

Kəpənək: Məhz o mənim kiçik qardaşımdır. Bir müddət sonra o da baramasını hörəcək və bir gün mənim kimi kəpənək olacaq.

Cem: Bu dəyişməni necə planlaşdırırsınız? Yəni, yumurtadan nə vaxt çıxacağınızı, nə qədər müddət tırtıl olaraq qalacağınızı, baramanı hörmək üçün ipliyi necə hazırlayacağınızı?

Kəpənək: Bunların heç birini biz planlaşdırmırıq. Allah nəyi, nə vaxt etməyimizin lazım olduğunu bizə öyrətmişdir. Biz də ancaq Rəbbimizin dilədiyi şəkildə hərəkət edirik.

Cem: Üstəlik çox gözəl naxışlarınız var. Heç bir kəpənəyin naxışı, başqa birinə bənzəmir. Rəngarəng və göz oxşayandır.

Kəpənək: Bu da Allahın bənzərsiz sənətinin bir dəlilidir. Hər birimizi ayrı-ayrılıqda, ən gözəl şəkildə yaratmışdır.

Cem: Allahın yaratdığı gözəllikləri görməmək qeyri-mümkündür. Ətrafımız sonsuz nümunələrlə doludur.

Kəpənək: Haqlısan Cem, bunun üçün Allahı çox uca tutmalıyıq.

Cem: Atam gəlir, yola düşəcəyik. Tanış olduğumuza sevindim, həftəyə gəldiyimdə yenə danışaq olarmı?

Kəpənək: Əlbəttə ki, olar uğurlu səyahətlər.

**Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var...**

**(Muminun surəsi, 21)**

**Məgər Allahın göydən yağmur endirdiyini və onunla müxtəlif rəngli meyvələr yetişdirdiyimizi görmürsənmi? Dağlarda da müxtəlif rəngli – ağ, qırmızı və tünd qara cığırlar əmələ gətirdik. İnsanlar, heyvanlar və mal-qara arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah Qüdrətlidir, Bağışlayandır (Fatir surəsi, 27-28)**

# Ağacdələn ilə Serhat

Serhat, o bazar atasıyla birlikdə meşəyə gəzintiyə çıxmışdı. Bir tərəfdən meşədə gedərkən bir tərəfdən də ağacların və təbiətin nə qədər gözəl olduğunu düşünürdü. Sonra atasının bir yoldaşıyla qarşılaşdılar. Atası yoldaşıyla söhbətə qızışdığı vaxtda, bir səs Serhatın diqqətini çəkdi:

**Tık tık tık tık tık tık...**

Bu səs ağacdan gəlirdi. Serhat səsin sahibinə tərəf getdi və soruşdu:

Serhat: Nə üçün dimdiyini ağaca vurursan?

Ağacdələn: Biz ağacdələnlər, ağacları deşərək özümüzə yuva hazırlayarıq. Bəzən qidalarımızı bu ağac oyuqlarında saxlayarıq. Bu açdığım birinci oyuqdur. Bunun kimi daha yüzlərlə oyuq açacağam.

Serhat: Bəs qidalarını bu qədər kiçik bir yerə necə yerləşdirəcəksən?

Ağacdələn: Ağacdələnlər çoxu palıd qozasıyla qidalanarlar və palıd qozaları kiçik olur. Ağacın üstündə açdığım oyuqların hər birinə bir ədəd palıd qozası qoyacağam. Onda mənə çatacaq qədər qida tədarük etmiş olaram.

Serhat: Amma belə tək-tək məşğul olmaq əvəzinə böyük bir oyuq açıb onun içinə də qidalarını qoya bilərdin.

Ağacdələn: Bu cür etsəydim, onda digər quşlar gəlib mənim qida anbarını asanlıqla tapar və palıd qozalarını da apara bilərdilər. Amma mənim açdığım bu oyuqların hər birinin böyüklüyü bir-birindən fərqlidir. Mən də tapdığım palıd qozalarını oyuqlara yerləşdirərkən onların böyüklüklərinə görə yerləşdirirəm. Yəni, oyuğun böyüklüyü nə qədərsə, qozanın böyüklüyü də o qədər olur. Beləcə palıd qozası oyuğun içinə yerləşər. Allah mənim dimdiyimi, bu qozanı asanlıqla oyuqdan çıxarmağa uyğun şəkildə yaratdığı üçün mən heç bir çətinlik çəkmədən qozaları ağacdan götürə bilirəm. Amma başqa quşlar bunu edə bilmirlər. Beləcə mənim qidalarım da təhlükəsizlikdə olur. Əlbəttə ki, mən bunları düşünüb tapacaq ağıla sahib deyiləm, sadəcə bir ağacdələnəm. Bunları mənə Allah etdirir. Qidalarımı necə saxlayacağımı mənə öyrədən də, dimdiyimi bu işə uyğun olaraq yaradan da Allahdır. Əslində yalnız mən deyil, bütün canlılar etdikləri hər şeyi Allah onlara öyrətdiyi üçün edə bilərlər.

Serhat: Haqlısan. Mənə verdiyin məlumatlar üçün sənə təşəkkür edirəm. Allahın nə qədər böyük bir gücə sahib olduğunu yenidən xatırladım.

Serhat kiçik yoldaşıyla vidalaşaraq atasının yanına qayıtdı, hara baxırsa baxsın Allahın başqa bir möcüzəsini gördüyündən ötrü çox xoşbəxt idi.

# Hakan ilə qağayı

İsti havalarda gəmiylə səfər edərkən, Hakanın ən çox sevdiyi şey çöldə oturmaqdı. Bunun hesabına dənizə daha yaxın olur, ətrafı daha rahat seyr edə bilirdi. Bir gün yenə Hakan anasıyla gəmiyə minmişdi. Dərhal çöldəki cərgələrə oturdu. Hakan bu səfərdə tək olmadıqlarını fərq etdi. Bir qrup qağayı da gəmiylə yarışırmış kimi onları təqib edirdi. Qağayılar rəqs edər kimi havada uçarkən bir tərəfdən də sərnişinlərin atdıqları bublik qırıntılarını tutmaq üçün bir-birləriylə yarışırdılar.

Qağayılardan biri yavaşca süzülüb, Hakanın yanındakı sıraya qondu.

Qağayı: Necədir, havadakı rəqsimizi bəyəndinmi? Diqqətlə bizi izləyirdin, adın nədir?

Hakan: Adım Hakandır. Həqiqətən də uçuşunuzu bəyənərək izləyirdim. Qanadlarınızı heç çırpmadan havada qala bildiyinizi gördüm. Bunu necə edirsiniz?

Qağayı: Biz qağayılar küləyin hərəkət istiqamətinə doğru özümüzü tənzimləyərik. Külək çox yüngül olsa da şaquli dalğalar davamlı havanı itələyib qaldırarlar. Biz də havanın bu hərəkətindən faydalanar və bir dəfə belə qanad çırpmadan uzun məsafələr boyunca yol gedə bilərik.

Dənizdən havalananda qalxan hava kütləsinin daxilində irəli-geri sürüklənərik. Məhz bu, hava axınlarının qanadlarımızın altından axmasını təmin edər və çox enerji sərf etmədən havada qala bilərik.

Hakan: Qanad çırpmadığınız vaxt da havada asılıymış kimi dayandığınızı gördüm. Deməli, bunları həmişə küləyin istiqamətinə görə hərəkət edərək edirsiniz. Bəs küləyin gücünü və hardan əsəcəyini necə hesablayırsınız?

Qağayı: Bizim bunları öz məlumatımızla etməyimiz qeyri-mümkündür. Allah, bizi yaradarkən necə uçacağımızı, enerjimizi ehtiyatlı sərf edərək havada necə süzüləcəyimizi öyrətmişdir.

Bunlar Allahın varlığını və gücünü başa düşə bilməyimiz üçün verilmiş nümunələrdir.

Hakan: Bəli, sanki bir ip sizi tuturmuş kimi havada asılı qalırsınız. Yəqin ki, bunu edə bilmək üçün çox yaxşı riyaziyyat bilmək, incə hesablar aparmaq lazım idi. Amma siz heç çətinlik çəkmədən ilk uçduğunuz andan etibarən bunu edə bilirsiniz.

Qağayı: Rəbbimiz hər canlıya etməli olduqlarını ilham etmişdir. Hamımız əmr olunduğumuz işi görərik. Allahın hər şeyi əhatə etdiyini, nəzarəti altında saxladığını əsla unutma. O, hər şeyin sahibidir. Quranda bununla əlaqədar bir çox ayə tapa bilərsən. Az qalır ki, gəmi körpüyə yaxınlaşsın, mən də yoldaşlarımın yanına uçum. Təkrar görüşmək üzrə...

Hakan evə getdikdə Quranda, Allahın canlıları nəzarəti altında saxlamasıyla əlaqədar bir ayə axtardı və Hud surəsində tapdığı ayəni dərhal əzbərlədi:

**Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir.**

**(Hud surəsi, 56)**

**Məgər onlar Allaha tabe olub havada uçan quşları görmürlərmi? Onları havada saxlayan ancaq Allahdır. Həqiqətən, bunda iman gətirən insanlar üçün dəlillər vardır.**

**(Nəhl surəsi, 79)**

Əziz uşaqlar, Meqapod quşlarında balaların baxımıyla demək olar ki, tamamilə erkək quşlar məşğul olur. Əvvəlcə ana quşun yumurtlaması üçün böyük bir çuxur qazarlar. Ana quş yumurtladıqdan sonra erkək quş balaları üçün yuvanı müəyyən bir istilikdə saxlamalıdır. Bu istilik 33 dərəcədir.

Erkək quş yuvanın temperaturunu ölçmək üçün dimdiyini yuvanın üzərindəki quma batıraraq sanki bir termometrmiş kimi istifadə edər. Quş bu ölçmə əməliyyatını tez-tez təkrarlayar. Əgər yuvanın temperaturu yüksəlsə, dərhal temperaturu salmaq üçün yuvada ventilyasiya dəlikləri açar. Həmçinin quşun dimdiyi o qədər həssas bir termometrdir ki, biri gəlib yuvanın üstünə bir ovuc torpaq atsa və temperatur azca da olsa yüksəlsə belə, quş bunu fərq edə bilər. Ancaq bir termometrin edə biləcəyi bu əməliyyatı, Meqapod quşu əsrlərdir qüsursuz şəkildə tətbiq edir.

Çünki etdiyi hər şeyi ona Allah öyrətmişdir və dimdiyini də bir termometr həssaslığında yaradan üstün güc sahibi olan Allahdır.

# Sərdar ilə işıldaquş

Sərdar və ailəsi yay axşamları yeməklərini evlərinin bağçalarında yeyirdi. Yenə bir yay axşamı Sərdar stoldan qalxarkən, birdən bağçanın kənarındakı ağacların arasında yanıb sönən bir işıq gördü. Ağacların yanına gəldikdə bunun bir böcək olduğunu fərq etdi. Amma bu böcək gündüz gördüyü böcəklərdən çox fərqli idi, işıqlar saçaraq uçurdu.

İşıldaquş: Görürəm ki, səni çox təəccübləndirdim, çoxdandır məni izləyirsən. Mənim adım işıldaquş, bəs səninki nədir?

Sərdar: Mənim adım Sərdardır. Bəli doğrusu daha əvvəl heç bir yanıb sönən böcəklə qarşılaşmamışdım. Bədəninizdən sarı yaşıl rəngdə işıqlar çıxır. Bir dəfə yanan bir lampaya toxunduğum vaxt əlimin yandığını xatırlayıram. Bəs bu işığın çıxması sizin bədəninizə zərər vermirmi?

İşıldaquş: Haqlısan Sərdar, lampalar işıq verərkən isinərlər. Lampalar, elektrik enerjisindən istifadə edərək işıq hazırlayarlarkən bu enerjinin bir qismi də istiliyə çevrilər. Bu da lampanın isinməsinə səbəb olar. Amma biz bədənimizdəki işıq üçün kənardan enerji almarıq.

Sərdar: Elə isə bu sizin isinmədiyiniz mənasınamı gəlir?

İşıldaquş: Düz bildin. Biz enerjimizi özümüz istehsal edər və bu enerjidən çox diqqətlə istifadə edərik. Bunun hesabına həm enerjimizin bir hissəsi itməz, həm də bədənimizə zərər verəcək bir istilik meydana gəlməz.

Sərdar: Bu çox yaxşı düşünülmüş bir sistemdir.

İşıldaquş: Bəli, Allah bizi yaradarkən ehtiyacımız olan hər şeyi ən gözəl şəkildə planlamışdır. Uçarkən bir çox dəfə və sürətlə qanad çırpırıq. Əlbəttə ki, bu çox enerji tələb edən bir işdir. Amma işığımız enerjimizdən çox istifadə etmədiyi üçün bir problem yaşamırıq.

Sərdar: İşığınız sizə nə fayda verir?

İşıldaquş: Biz bundan həm öz aramızda xəbərləşmək, həm də özümüzü müdafiə etmək üçün istifadə edirik. Bir-birimizə bir şey izah etmək istədiyimiz vaxt işığımızı titrəşdirərək danışarıq. Bəzən də düşmənlərimizi qorxudub, özümüzdən uzaq tutarıq.

Sərdar: Yəni, lazım olan hər şey bədəninizin içində sizin üçün hazırlanmış və sizin yorulmanıza heç ehtiyac qalmamışdır.

İşıldaquş: Alimlər çox çalışmalarına baxmayaraq bizim sahib olduğumuz kimi bir sistem inkişaf etdirə bilməmişlərdir. Əvvəlcə də dediyim kimi, Allah, digər canlılarda olduğu kimi bizi də ən gözəl və ehtiyacımıza ən uyğun şəkildə yaratmışdır.

Sərdar: Təşəkkür edirəm. Mənə çox gözəl şeylər izah etdin. Bu sözlərindən sonra keçən gün oxuduğum **“Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi?” (Nəhl surəsi, 17)** ayəsini indi daha yaxşı qavraya bilirəm. Allahın

yaratdığı bütün canlılar bizim üzərində düşünüb, öyüd-nəsihət almağımız üçün müxtəlif nümunələrlə doludur!

İşıldaquş: Bəli Sərdar, bütün canlılar Allahın üstün yaratma sənətinin bir dəlilidir. Artıq baxdığın hər şeydə bunu sən də görə bilərsən. Artıq getməliyəm, danışdıqlarımızı yaddan çıxarma.

Sərdar: Səni tanımağıma sevindim, təkrar görüşmək üzrə...

Sərdar evə girərkən bir tərəfdən işıldaquş üstün dizaynı düşünür, digər tərəfdən də onunla apardığı söhbəti ailəsinə izah etmək üçün səbirsizlənirdi...

**O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə tariflər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 24)**

Qırmızı dəniz iki böyük səhra arasında qalan bir dənizdir. Qırmızı dənizə heç bir çay ya da başqa bir şirin su tökülməz, yəni bura heç bir yerdən oksigen və ya azot nəql olunmaz. Normalda bu dənizin səmərəsiz və əhatə olunduğu quru parçaları kimi bir çöl olması lazım gəldiyi halda, Qırmızı dənizdə bütün mərcan növləri tapılar. Çətin şərtlərə baxmayaraq, burada yaşamağı bacaran mərcanların bu müvəffəqiyyəti, yosun adlı bitkiyə bənzər bir canlıyla apardıqları "ortaq bir həyat" ilə baş verər. Yosun, mərcan skeletinin arasında düşmənlərindən qorunaraq günəş işığıyla fotosintez edər. Bu iki canlının uyğun həyatları Allahın üstün yaradıcılığının dəlilidir.

## Bora ilə yaşıl qurbağa

Həftə sonu Bora, atasıyla birlikdə balıq tutmaq üçün gölə getmişdi. Atası qarmaqları hazırlayarkən, Bora da bir az ətrafı gəzmək üçün atasından izn istədi. Atası çox uzaqlaşmaması şərtiylə Boranın bu istəyini qəbul etdi.

Bora suyun kənarındakı kolluqların arasında gəzməyə başladı. Birdən-birə budaqların arasından bir qurbağa tullanıb tam qabağındakı daşın üstünə qondu.

Qurbağa: Az qalsın məni əzəcəkdin.

Bora: Rəngin yarpaqlara o qədər bənzəyir ki, səni fərq edə bilmədim kiçik qurbağa. Məni Adım Boradır, mən də ətrafı gəzməyə çıxmışdım.

Qurbağa: Məmnun oldum Bora. Məni fərq edə bilməməyin çox normaldır. Mən bu kolların arasında yaşayıram və rəngim də bu yarpaqlarla uyğundur. Beləcə düşmənlərim də eyni sənin kimi məni fərq edə bilmirlər. Mən də asanlıqla gizlənə bilirəm.

Bora: Bəs yenə də səni görsələr, onda nə edərsən?

Qurbağa: Diqqətli baxsan barmaqlarımın arasında pərdə olduğunu görərsən. Tullanarkən barmaqlarımı açıram, beləcə havada süzülə bilirəm. Bəzən 12 metr məsafəyə qədər də uça bilirəm.

Bora: Bəs enmək istədikdə nə edirsən?

Qurbağa: Ayaqlarımdan istifadə edərək uçuşuma istiqamət verə bilirəm. Enişimi yavaşlatmaq üçün ayaqlarımdakı pərdələrdən bir paraşüt kimi istifadə edirəm.

Bora: Çox maraqlıdır, əvvəllər qurbağaların uça bildiyini heç eşitməmişdim.

Qurbağa: Bizim bəzi növlərimiz üzə bildiyi qədər uça da bilirlər. Bu, Rəbbimizin bizə verdiyi bir nemətdir. Allah bizim rənglərimizi də yaşadığımız mühitə kamuflyaj olacağımız şəkildə yaratmışdır. Buna hesab həyatımızı davam etdirə bilirik. Allah bizi belə yaratmasaydı qısa müddətdə başqa canlılar tərəfindən ovlanardıq.

Bora: Sizin barmaqlarınızın arasında pərdə olması uzaq məsafələrə tullanmağınız üçün lazımdır. Mənim ehtiyacım olmadığı üçün məndə yoxdur. Çünki hər canlının ehtiyacı müxtəlifdir, elə deyilmi?

Qurbağa: Bəli doğrusu çox gözəl izah etdin.

Bora: Allah həyatımızı asanlaşdırmaq üçün bizi ən gözəl şəkildə yaratmışdır. Bunun üçün Ona çox şükür etməliyik.

Qurbağa: Haqlısan Bora, Rəbbimiz hər canlını yaşadığı mühitə uyğun şəkildə yaratmışdır. Bizim hər ehtiyacımızı, bizə hələ doğularkən vermişdir.

Bora: Bəli. Sevimli kiçik qurbağa, mən indi getməliyəm. Yoxsa atam məndən nigaran olacaq. Səninlə danışmaq çox gözəl idi, təkrar bura gəlsəm, yenə səni ziyarət edərəm.

Qurbağa: Oldu, çox məmnun olaram. Gülə-gülə Bora...

Bora: Əlvida.

## Qurbağaların ayaq pərdələri

Allahın yaratdığı diqqət çəkici canlılardan biri də balta girməmiş meşələrdə yaşayan bir qurbağa növüdür. Zəif ayaqları və barmaqlarının arasında pərdə olan bu kiçik ağac qurbağasının ən əhəmiyyətli xüsusiyyəti, pərdəli ayaqlarından istifadə etməklə süzülərək uça bilməsidir. Ağacların üstündən uçarkən, enişini yavaşlatmaq istədiyi vaxt ayaqlarından 4 ədəd paraşüt kimi istifadə edər. Ayaq barmaqları arasındakı torları genişlədərək, bədən səthini az qala iki mislinə çıxardar. Uçan qurbağalar bir ağacın üzərinə enmədən əvvəl 12 metr məsafəyə qədər havada süzülə bilirlər. Hətta, qıçlarını hərəkət etdirərək və ayaq pərdələrinin formasını dəyişdirərək istiqamətlərini də tənzimləyə bilirlər.

# Serkan ilə uzun ayaqlı leylək

Serkan şən və çox ağıllı bir uşaq idi. Quşlara qarşı çox böyük maraq göstərən Serkan, bütün quşları yaxından tanımaq istəyərdi. Evində də quş saxlayan Serkan, sonra onları sərbəst buraxardı. Onların azad şəkildə yaşamalarından çox məmnun olardı. Yaz ayları idi. Serkan bir gün havada sürü halında uçan uzun ayaqlı quşlar gördü və dərhal evin damına çıxaraq onları yaxından görmək istədi. Terasa çıxdıqda bu quşlardan ikisinin evlərinin bacasına qonduğunu gördü və çox sevindi. Sonra da onlara əl edərək səsləndi.

Serkan: Salam sevimli quşlar, mən Serkan, sizinlə tanış ola bilərikmi?

Leylək: Salam Serkan. Ümid edirəm ki, bura qonmaqla sizi narahat etmədik. Biz də səninlə tanış olub danışmağı çox istəyərik.

Serkan: Mən bütün quşları çox amma çox sevirəm. Sizi tanımadığım üçün mənə bir az özünüzdən bəhs edərsinizmi?

Leylək: Əlbəttə ki, bəhs edərik. Biz leyləklər 1-1,5 metr uzunluğunda, böyük dümağ qanadları, uzun qara quyruqları olan, köçəri quşlarıq. Dimdiklərimizin və uzun qıçlarımızın qırmızı olması, təbiidir ki, bizə sevimli bir hava qazandırır.

Serkan: Həqiqətən çox sevimli quşlarsınız!

Leylək: İnsanların ən çox diqqətini çəkən xüsusiyyətimiz isə uçuş formalarımızdır. Dimdiklərimizi irəli, qıçlarımızı geriyə doğru uzadaraq uçarıq. Bu estetik uçuş formamız, bizə havanı yararaq xeyli sürətlə uça bilmə imkanı verər.

Serkan: Yaxşı, görəsən indi hara səyahət edirsiniz?

Leylək: Biz hər il sıx sürülər halında köç edirək, Serkan. Çünki biz soyuq ərazilərdə yaşaya bilmərik. Biz bu köçümüzlə insanlara yayın isti günlərinin müjdəsini vermiş olarıq. Yay fəslində Avropadan Şimali Afrikaya, Türkiyədən Yaponiyaya qədər uzanan mülayim qurşaqda həyatımızı davam etdiririk. Havalar soymağa başlamadan Cənub yarımkürəsinə, tropik Afrikaya və Hindistana köç edərik.

Serkan: Bəs siz havaların isinməyə başladığını necə anlayırsınız?

Leylək: Həqiqətən çox gözəl bir sual verdin. Bunun səbəbi, əlbəttə ki, Allahın bizə bunu öyrətməsidir. Hamımız eyni anda isti ölkələrə köç etməyimizin lazım olduğunu hiss edərik, Allah bunu bizə hiss etdirər. Bizə köç edəcəyimiz yolları göstərən və yenidən yaz gəldikdə isə minlərlə kilometr yolu geri qayıdıb əvvəlki yuvalarımızı tapmağımızı təmin edən, ilhamıyla bizə bunları öyrədən Allahdır.

Serkan: Həqiqətən o qədər uzaq məsafələrə gedib qayıtmağınız və sanki əlinizdə bir kompas varmış kimi, əvvəlki yuvalarınızı heç çaşmadan tapmağınız çox maraqlıdır.

Leylək: Əlbəttə ki, bütün bunlar bu cür güclü bir yaddaş və belə möhtəşəm bir istiqamət tapma hissini bizə verən Allahın üstün yaratması hesabına baş tutar.

Serkan: Siz insanlara yaxın olan heyvanlarsınız, elə deyilmi?

Leylək: Bəli yuvalarımızı insanların yaşadıqları evlərin damlarında qurarıq. Həmçinin yuvalarımızı ağacların, bacaların təpələrində də inşa edirik...

Biz yavaş-yavaş yola düşməliyik, Serkan.

**Yer üzündə gəzən heyvanların və göydə uçan iki qanadlı quşların hamısı sizin kimi ümmətlərdir. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanılacaqlar.**

**(Ənam surəsi, 38)**

## Emre ilə suiti

Emre məktəbdən qayıtdıqdan sonra televizora baxırdı. Açıq olan televiziya kanalında bir sənədli film gedirdi. Emre həqiqi həyatda heç görmədiyi canlıları sənədli filmlərdə seyr etməyi çox sevirdi. Bu dəfəki proqram suitilər haqqında idi. Emre diqqətlə seyr etməyə başladı.

Lakin birdən üşüdüyünü hiss etdi. Ətrafına belə bir nəzər saldı. Dərhal yanında bir qədər əvvəl televiziyada gördüyü sevimli suiti dayanmışdı! Emre onun yanına gəlmişdi!

Emre: Salam! Bura çox soyuqdur sən üşümürsənmi?

Suiti: Yəqin ki, sən bu yerlərə təzə gəlmisən. Bura həmişə soyuqdur. Yazda belə havanın ən isti temperaturu -5 dərəcədir. Tam da mənə görədir. Çünki biz suitləri soyuğu çox sevərik. Həmçinin heç üşümərik. Niyəmi? Uca Allahın bizə bəxş etdiyi bu möhtəşəm geyimimizə, yəni kürklərimizin hesabına! Əlbəttə ki, bədənimizdəki yağlar da bizi soyuqdan qoruyar.

Emre: Bu qabaqdakı anandırmı? Elə bil səni axtarır, istəyirsənsə bir səslən...

Suiti: Biz suitləri sıx sürülər halında yaşayarıq və bəli bir-birimizə çox bənzəyirik. Amma anamız heç birimizi başqa birimizlə qarışdırmaz. Bu Allahın analarımıza ilham etdiyi bir qabiliyyətlə olar. Doğular-doğulmaz ana balasını tanımaq üçün onu öpər. Bu öpüşün hesabına balasının iyini tanıyar və onu bir daha əsla başqa bir balayla qarışdırmaz. Bu bizim üçün Allahın sonsuz nemətlərindən biridir. Anamıza bu izdihamlı həyatımızda bizləri ayırd edə bilmə qabiliyyəti verdiyi üçün uca Rəbbimizə şükür edirik.

Emre: Bildiyimə görə həyatınızın böyük hissəsini sularda keçir. Sən yaxşı üzməyi necə öyrəndin?

Suiti: Allah hamımızı yaşadığımız mühitin tələblərinə uyğun və hazırlıqlı şəkildə yaradır. Necə ki, bir dəvəni çölün həyat tələblərinə uyğun yaratmışsa, məni də bu soyuq ölkənin tələblərinə uyğun yaratmışdır. Allahın diləməsiylə, doğulduğumuzda bədənimiz körpə yağı

deyilən bir yağla örtülmüş olar. Kiçik bədənimiz bu yağ hesabına isti qalar. Və yenə bu yağ təbəqəsi, sudan daha yüngül olduğu üçün, anamız bizə üzməyi öyrədərkən bir "can simiti" vəzifəsi görər. İki həftə davam edən üzmə dərslərindən sonra artıq məharətli bir üzgüçü və dalğıc halına gələrik.

Emre: Allah üzməyi öyrənməyiniz üçün bədəninizdə sizə xüsusi bir can simiti yaratmış! Çox möhtəşəm!

Suiti: Haqlısan, qüsursuz şəkildə yaratdığı hər varlıq Allahın hər şeyə qadir olduğunun bir dəlilidir.

Elə həmin vaxt Emre, anasının isti bir öpüşüylə oyandı. Televiziyadakı sənədli film davam edirdi. Emre bir qədər əvvəl gördüyü yuxunu xatırladı və ekrandakı suiti balığına baxaraq gülümsədi.

**... Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz...**

**(İbrahim surəsi, 34)**

**Göyləri, yeri və onlarda yaydığı canlıları yaratması Onun dəlillərindəndir...**

**(Şura surəsi, 29)**

## Dözümlü suitləri

Dəniz suyu xüsusilə dərinliyə getdikcə çox soyuyar. Buna görə də Allah soyuq sularda yaşayan suitlərini, dərilərinin altında olan qalın bir yağ təbəqəsiylə yaratmışdır. Bu təbəqə suitlərinin bədən temperaturunun çox tez itməsinin qarşısını almağa fayda verir. Suitlərinin maraqlı xüsusiyyətlərindən biri də dişi suitlərinin bilinən ən zəngin, ən qidalı südü hazırlamalarıdır. Bu süd çətin şərtlərdə inkişaf edən balaların çox sürətlə böyümələrinə imkan verər.

# Emre ilə buqələmun

Məktəb gəzintisinə qoşulan Emre yoldaşlarından ayrılıb kolların arasında gəzməyə başlamışdı. Tam bir ağaca söykənib istirahət edəcəyi vaxt yerdəki ağac kötüyündən bir səs gəldi.

Buqələmun: Salam Emre, çoxmu yoruldun?

Emre qulaqlarına inana bilmədi. Ağac kötüyünə diqqətlə baxdıqda, üzərində dayanan, bu kötüklə eyni rənglərdə olan, ondan çətinliklə seçilə bilən bir heyvan fərq etdi.

Emre: Sən kimsən? Səni fərq etməkdə çox çətinlik çəkdim, rənglərin üstündə durduğun ağac kötüyünün rəngləriylə eynidir!

Buqələmun: Mən bir buqələmunam. Özümü təhlükələrə qarşı qorumaq üçün üstündə durduğum cisimin rənglərinə bürünürəm.

Emre: Bu möhtəşəm bir şeydir, bəs bunu necə bacarırsan?

Buqələmun: Dərimdə "kromatofor" adlanan xüsusi bir rəngdə olan maddə var. Bu maddəyə hesab olduğum mühitlə rəng ahəngi təmin edirəm. Sinir sistemimdəki ifrazatlar və piqmentlerimin dağılıb toplanmasıyla bu rəng dəyişməsi meydana gələr.

Beləcə çox ağır hərəkət etməyimə baxmayaraq olduğum mühitlərdə fərq edilmədən təhlükəsiz bir şəkildə həyatımı davam etdirə bilərəm. Əlbəttə ki, bu xüsusiyyəti mənə hamının ruzisini verən uca Allah vermişdir.

Emre: Rəng dəyişdirmə xüsusiyyətini bir qədər də izah edərsənmi?

Buqələmun: Gün işığında yarpaqlı bir budaqda oturarkən, ətraflarındakı kolluqların kölgəsinə bənzər şəkildə qara və qəhvəyi ləkələrlə yanaşı yaşıl rəngə bürünərəm. Qaranlıqda isə tamamilə qara rəngə bürünərəm. Bütün bu rəng dəyişikliklərimi 15 dəqiqə ərzində həyata keçirərəm. Bir də hirsləndiyim vaxtlarda üzərimdə digər heyvanları xəbərdar edəcək şəkildə tünd narıncı xallar, tünd qırmızı ləkələr meydana gələr.

Emre: Bu, həqiqətən inanılmazdır... Başqa nə kimi xüsusiyyətlərin var, məni çox maraqlandırır?

Buqələmun: Gözlərim digər bütün orqanlarımdan müstəqil şəkildə hərəkət edər. Gözlərimlə 180 dərəcəlik bir bucaq altında önə, arxaya və ya tam aşağıya baxa bilərəm. Əlbəttə ki, Allah diləməsəydi mən bu xüsusiyyətlərin heç birinə sahib ola bilməzdim. Allah məni yaratmış və həyatda qalmaq üçün mənə lazım olan bütün xüsusiyyətləri vermişdir.

Emre: Gözlərini seçə bilməkdə çətinlik çəkirəm...

Buqələmun: Gözlərimin düşmənlərin diqqətini çəkməməsi üçün Allah gözlərimi başıma uyğun şəkildə demək olar tamamilə pulcuqlarla örtmüşdür. Gördüyün kimi Allah məni yaradarkən qarşılaşa biləcəyim hər vəziyyəti planlayıb ən uyğun şəkildə yaratmışdır.

Emre: Artıq ətrafıma daha diqqətlə baxıb, Allahın varlığının təbiətdəki açıq-aşkar dəlillərini gördükdə uca Rəbbimizi həmd ilə təsbih etməyi heç vaxt yaddan çıxartmayacağam. Təşəkkür edirəm.

Buqələmun: Əlvida Emre!

**Budur sizin Rəbbiniz olan Allah.**

**Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Hər şeyin Yaradıcısı Allahdır! Elə isə Ona ibadət edin! O, hər şeyi Qoruyandır.**

**Gözlər Onu dərk etmir.**

**O isə gözləri dərk edir.**

**O, Lətifdir, hər şeydən Xəbərdardır.**

**(Ənam surəsi, 102-103)**

**Şübhəsiz ki, mal-qarada da sizin üçün bir ibrət vardır...**

**(Nəhl surəsi, 66)**

# Bora ilə it

Bora oyun oynamaq üçün sinif yoldaşı Canın evinə getmişdi. Can özünü çağıran anasının yanına getdikdə Bora otaqda tək qalmışdı. Elə həmin vaxt otağa Canın iti girdi! Sanki "mən də səninlə oynamaq istəyirəm". Deyən it elə sevimliydi ki!

Bora: Ey! Gəl baxaq, birlikdə oynayaq!

İt: Urra, çox sevindim!

Bora təəccüblənib dəhşətə gəldi. İt danışırdı! Bu əldən verilməyəcək bir fürsət idi. İtlər haqqında maraqlandığı şeyləri soruşmağa başladı:

Bora: Sevimli it, həmişə maraqlanmışam, yeyəsən deyə verdiyimiz o möhkəm sümükləri necə çeynəyirsən?

İt: Bütün canlılara özlərinə aid xüsusiyyətlər verən Allah, biz itlərə də digər canlılardan fərqli fiziki xüsusiyyətlər vermişdir. Məsələn, dişlərimizin sayı sizinkilərdən on dənə çox, tam 42 dənədir. Beləcə yeməklərimizi, xüsusilə də sümükləri asanlıqla ağzımızda parçalayıb üyüdə bilirik.

Bora: Bildiyimə görə sən də mənim kimi oynamağı, qaçıb tullanmağı çox sevirsən. Bəs necə olur ki, sən heç tərləmirsən?

İt: Biz, insanlarda olduğu kimi bədən temperaturunu tənzimləmək üçün tərləmərik, çünki bədənlərimizdə tər vəziləri yoxdur. Bədən temperaturumuzu tənəffüs sistemimizlə tənzimləyərik. Bədənimizdəki tüklər isə çöldən gələn istiliyin dərimizlə təmasının qarşısını alar. Hava istiliyinin artmasıyla əlaqədar bədən hərarəti də artar, əmələ gələn artıq temperaturu isə dilimizi çıxartmaqla xaric edərik. Beləcə tüklərimizin qalın olmasına baxmayaraq isti günlərdə tərləmərik.

Allah bizə elə mükəmməl bir sistem vermişdir ki, insanlar yarım saat hərəkət etdikdə dərhal tərlədiyi halda, biz saatlarla heç dayanmadan qaçsaq da tərləmərik. Artıq bunları bildiyinə görə, isti havalarda dillərini çölə çıxartmış itlər gördükdə onlar üçün kədərlənməyinə ehtiyac olmadığını da, yəqin ki, başa düşmüsən. Əlbəttə ki, bu sistemi biz itlər özümüz yaratmadıq. Bu ancaq hər şeyi nümunəsiz olaraq yaradan Allahın üstün yaradıcılığının dəlillərindən biridir.

Bora: Elə güman edirəm ki, sizin iy hiss etmə duyğunuz da çox inkişaf etmişdir.

İt: Haqlısan. Qoxubilmə duyğumuz çox güclüdür. Beynimizdəki qoxubilmə mərkəzi insanlardan 40 dəfə çox inkişaf etmişdir.

Bora: Deməli, polis itləri də bunun hesabına qoxuladıqları kiçik bir əşyaya əsaslanaraq o əşyanın sahibini tapa bilirlər!

İt: Çox doğru. Görürsən ki, hər gün görməyə vərdiş etdiyin biz itlər də digər canlılar kimi Allahın yaratmasının dəlillərindənik. Bunu həmişə ağlında tutub həmişə Allahı həmd-səna ilə zikr etməyi heç vaxt yaddan çıxartma.

Bora: Təşəkkür edirəm sevimli it. İnşaAllah bunu heç vaxt yaddan çıxartmayacağam. Və bütün yoldaşlarıma Allahın sizə verdiyi bu xüsusiyyətləri izah edib onlara da şükür etmələrini deyəcəyəm.

Elə həmin vaxt Can otağa daxil oldu və hamısı birlikdə oynamağa başladılar.

## SEVİMLİ DOSTLARIMIZ

**Yer üzündə olanların hamısını sizə görə xəlq edən, sonra göyə tərəf yönəlib onu yeddi qat göy edən Odur. O, hər şeyi bilir.**

**(Bəqərə surəsi, 29)**

### İy mütəxəssisi itlər

İtlərin iylərə qarşı fövqəladə həssas burunları var. Küçədə gedərkən, digər itlərin iylərini və ətrafdakı insanların özlərinə xas iylərini təhlil edərək, onlar haqqında məlumat toplayırlar. Havadakı ən kiçik dərəcələrdəki iyləri belə çətinlik çəkmədən müəyyən edərlər. Qoxubilmə duyğusu qüvvətli bir it növü olan “bloodhound”, heç bir əlamətin müşahidə olunmadığı ərazilərdə iz dalınca gedə bilər, dörd günlük bir izi təqib edə bilər və bir insanın izi 80 kilometrdən daha çox çəkə bilər.

## Əhməd ilə at

Əhmədin bacısı ata minməyi öyrənmək istəyirdi. Həftə sonu ailə tərəfindən atçılıq klubuna getdilər. Bacısı, anası və atası atçılıq müəllimiylə danışarkən, Əhməd qarşıda ot yeməkdə olan bir atın yanına yaxınlaşdı.

Əhməd: Salam! Yediyin otlar çox qumlu və tozlu görünür. Dişlərin ağrımırmı?

At: Xeyr, kiçik dostum. Dişlərimizin yeyilmə payları vardır. Allah dişlərimizi çox uzun yaratmışdır. Bu dişlər çənə sümüyümüzün xeyli dərinliklərinə qədər basdırılan uzun zolaqlar halındadır. Yəni, dişlərin kök hissəsi sizinkilərə nisbətən çox dərindədir. Dişimiz yeyildikcə sümüyün içindəki hissə çölə çıxar. Hər bir diş, yemək yemə qabiliyyətini itirmədən 2,5-5 sm qədər yeyilə bilər.

Əhməd: Deməli, Rəbbimizin siz atlara belə bir xüsusiyyət verməsiylə, qısa müddətdə dişlərinizi itirib aclıqdan ölməkdən xilas olmuşsunuz.

At: Çox haqlısan. Gördüyün kimi, Allah hər canlını qarşılaşacağı həyatın tələblərinə uyğun şəkildə yaratmışdır. Bu Onun üstün yaradılışının dəlillərindən biridir. Yer üzündəki hər canlı Ona möhtacdır.

Əhməd: İndi sənin üstünə minsəm, məni heç yorulmadan kilometrlərlə uzağa apara bilərsən, elə deyilmi?

At: Bəli. Onsuz da tarixən insanlara bu mövzuda ən çox kömək edən heyvanlar bizik. Bu gün küçələrdə minlərlə avtomobil və bu avtomobillər üçün yollar var. Halbuki, bu avtomobillər ancaq son əsrdə insanlara xidmət etməyə başlamışlar. Ulu atanın doğulduğu illərdə heç kimin avtomobil deyə bir şeyin varlığından xəbəri yox idi. O tarixdə nəqliyyat və daşıma işləri heyvanlara, xüsusilə də biz atların hesabına həyata keçirilirdi.

Əhməd: Bu qıçlarla bu qədər uzun yol gedə bilmənə təəccüblənmədim. Bəs sürətli qaça bilərsənmi?

At: Əlbəttə ki, qaça bilərəm. Allah qıçlarımı təkcə ağır yükləri daşımaq üçün deyil, həmçinin sürətli qaçmağım üçün də üçün xüsusi olaraq yaratmışdır. Bizdə digər heyvanlarda olduğu kimi körpücük sümüyü yoxdur. Bu bizim daha böyük addım ata bilməyimizə imkan verər.

Əhməd: Allah sizi ağır yükləri asanlıqla daşımağınız və sürətli qaça bilməyiniz üçün uyğun şəkildə yaratmışdır.

At: Bəli Əhməd. Allah, bizi bu xüsusiyyətlərimizlə insanlara xidmət etməyimiz üçün yaratmışdır.

Əhməd: Əminəm ki, bu öyrəndiklərimi bacıma izah etdikdə, atçılıq təlimi almaq onun daha çox diqqətini çəkəcək!

At: Əlvida kiçik dostum.

**Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir. (Fatir surəsi, 15)**

## Ana pandaların xüsusi baxımı

Ana pandalar balalarına çox yaxşı qayğı göstərərlər. Bala pandaların xüsusi bir qorumağa ehtiyacı vardır, çünki doğulduqları vaxt köməyə möhtac vəziyyətdədirlər. Düşmənləri bala pandaya hücum etdikdə, anası güclü çənəsiylə düşmənini dişləyərək balasını qorumağa çalışar. Halbuki ana panda balasını güclü çənəsiylə olduqca nəzakətlə tuta bilir. Hətta balalarını bir yerdən, başqa bir yerə daşıyarkən boyunlarından yapışaraq bir pişik kimi tuta bilərlər. Necə davranmaları lazım olduğunu pandalara öyrədən, onları yaradan və nəyə ehtiyacları olduqlarını ən yaxşı bilən Allahdır.

## Levent ilə kenquru

Levent, oxuduğu bir hekayə kitabında kenquruların ciblərində böyütdükləri balalarından bəhs olunduğunu gördükdə təəccüblə özündən soruşdu: "Heç heyvanda cib olarmı?" Kitabdakı kenquru cavab verdi: "Təəccüblənməkdə haqlısan sevimli Levent. Lakin, həqiqətən də biz kenquruların qarnında, "kisə" adı verilən və balamızın qidalanmasının, qorunmasının və inkişafının təmin edildiyi bir yer var".

Levent şəkildə anasının qarnındakı başını cibdən çölə çıxartmış balanın sevimliliyinə qarşı dərin bir şəfqət hiss etdi.

Levent: Bəs görəsən bu sevimli bala o cibə necə gəldi?

Kenquru: Bala kenquru hələ 1 sm olduğu halda, erkən doğum reallaşar. Bu cibə, hələ tam olaraq inkişaf etməmiş kiçik bala, 3 dəqiqəlik bir səfər ərzində çatar.

Levent: Bu çox maraqlıdır... Bəs bala bu kisədə necə qidalanar?

Kenquru: Kisəmizin içində dörd müxtəlif məmə var. Bu məmələrin birində, konsistensiyası və istiliyiylə bu kiçik bala üçün xüsusi olaraq hazırlanmış bir süd var. Digər üç döşdə isə yeni doğulmuş bir körpə üçün deyil, yaşı hələ çox olan bir bala üçün hazırlanan süd var. Bu bala da bir neçə həftə sonra ilk əmdiyi döşü tərk edəcək və yaşına uyğun olan döşü əmməyə başlayacaq. Bir qədər də böyüdükcə isə başqa birinə keçəcək.

Levent: Çox qəribədir! 1 sm uzunluğundakı kenquru balası, bu dörd məmədən hansını seçəcəyini hardan öyrənə bilər? Bəs siz ana kenqurular dörd döşün hər birinə bu qədər fərqli xüsusiyyətdəki südləri necə yerləşdirə bilirsiniz?

Kenquru: Üstəlik, yeni doğan balanın əmdiyi süd digər döşdən gələn südləri nisbətən daha istidir. Tərkibində olan qidalar da daha fərqlidir. Səncə biz ana kenqurular bu məmə daxilindəki südü necə qızdıra bilərik? Əsla yaddan çıxartma sevimli Levent, əslində bunların heç birini ana kenquru etmir. Bizim kisəmizin içindəki südlərin müxtəlif olduğundan xəbərimiz belə yoxdur. Məmələrimizdəki südün istiliyini hesablaya bilməyimiz də qeyri-mümkündür. Hər südə fərqli xüsusiyyət verməyi, hansı südün içində hansı qidanın olduğunu da bilmirik. Biz yalnız Allahın bizlərə əmr etdiyi şəkildə yaşayarıq. Balamızın ehtiyaclarını da bizi yaradan Allah düşünmüşdür. Sonsuz şəfqət və mərhəmət sahibi olan Rəbbimiz, ən uyğun tərkibdəki südləri, balalar üçün ən uyğun yerə, yəni biz anaların qarnına yerləşdirmişdir.

**De: "Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin suyu qurtarardı".**

**(Kəhf surəsi, 109)**

# Uğur ilə hörümçək

Uğur bağçada uzanmış vəziyyətdə kitab oxuyurdu. Oxuduğu kitabdan gözlərini çəkib ətrafa baxarkən birdən gözünə ağacın budaqlarındakı hörümçək toru sataşdı. Ayağa qalxdı və hörümçək toruna bir az daha yaxınlaşdı və heyranlıqla toru araşdırmağa başladı. Bu vaxt torun yaxınlığındakı hörümçək Uğura səsləndi.

Hörümçək: Salam dostum!

Uğur: Salam, hazırladığın torun forması çox maraqlıdır. Bu formanı necə hazırlaya bilirsən?

Hörümçək: Torumu qurmaq üçün münasib bir yer təsbit etdikdən sonra işə başlayaram. Bu yer bir künc və ya bir-birinə yaxın iki cismin arası ola bilər. Sənə ağac budaqları arasında necə tor qurduğumu izah edim. Əvvəlcə telimi budağın bir ucuna möhkəm şəkildə yapışdıraram. Budağın digər ucuna tərəf gedərkən digər tərəfdən də tel ifraz etməyə davam edərəm. Müəyyən bir məsafəyə çatdıqda durar və tel ifrazını da dayandıraram. Sonra ifraz etdiyim teli möhkəm bir şəkildə özümə tərəf çəkməyə başlayaram və ucunu yerə möhkəm şəkildə yapışdıraram. Sonra isə əmələ gələn yayın içində torumu hörməyə başlayaram.

Uğur: Mən bir ipi dartılı vəziyyətdə tutub iki divar arasında belə bir əməliyyatı əsla həyata keçirə bilməzdim. Bəs ipi dartılı vəziyyətdə tutmaq çətin olmurmu?

Hörümçək: Bu problemi necə həll etdiyimi sənə izah edim: Bəzən torumu bir-birindən uzaq budaqlar arasında quraram. Belə torlar olduqca böyük olduğundan ov tutma potensialı da böyükdür. Amma torun böyük olması vaxt ərzində gərginliyinin azalmasına səbəb olar. Bu da, ov tutmağımdakı müvəffəqiyyətimin azalması deməkdir. Torun mərkəzinə gedər, buradan yerə qədər uzanan bir tel ifraz edərəm. Telin yerə yaxın olan ucuna da kiçik bir daş bağlayaram. Sonra tora geri qayıdar və teli çəkərək daşın yerdən yuxarı qalxmasını təmin edərəm. Daş havada olarkən bağlı olduğu teli, torun ortasına yenidən möhkəm şəkildə bağlayaram. Nəticədə tor, ortasından sallanan bu daşın özünü aşağıya tərəf çəkməsiylə əlaqədar olaraq dartılar. Məhz bu qədər!

Uğur: Bu gözəl bir üsuldur! Bəs sən belə üstün bir texnikanı hardan bilir və necə uğurla tətbiq edirsən? Üstəlik milyonlarla ildir ki, güman ki, hər hörümçək bunu edir...

Hörümçək: Haqlısan dostum. Bunu bacaracaq bir zəkaya sahib olduğumu düşünmək ağılsızlıq olardı. Bu texnikanı istifadə etməyimi mənə ilham edən, hər şeyin sahibi olan və bunları yaradan Allahdır.

Yaddan çıxartma Uğur, Allah üçün hər şey çox asandır. Allah sonsuz sayda varlıq, sonsuz sayda məkan yaratmağa qadirdir.

Uğur: İzah etdiklərin üçün təşəkkür edirəm. Allahın nə qədər güclü və üstün bir elmə sahib olduğunu, yaratdığı canlıları və bunlardakı qüsursuz dizaynları hər gördükdə daha yaxşı başa düşürəm.

# Serkan ilə ördək

Əmisi Serkanı, çoxdandır getməyi çox arzuladığı bir yerə aparırdı. Bu yer, həmişə kitablarda və jurnallarda oxuduğu, televiziya verilişlərində seyr etdiyi heyvanları həqiqi hallarıyla görə biləcəyi zoopark idi. Səfərləri uzun və zövqlüydü. Yol boyunca əmisi Serkana müxtəlif iman həqiqətləri izah edirdi, Qurani Kərimdən nümunələr verirdi. Nəhayət zooparka çatmışdılar. Serkanın təəccüblənməkdən gözləri bərəlmişdi. Bu qədər çox və müxtəlif heyvanı heç bir yerdə görməmişdi. Quşların olduğu yerə gəldikləri vaxt Serkan əmisinin yanından ayrılıb, sevimli ördəklərin qəfəsinin yanına getdi. Qəlbində "nə qədər də gözəl bir quş" dedi. Bu əsnada bir səs "təşəkkür edirəm" dedi. Serkan ətrafına baxdı, heç kim yox idi. Danışan qabağında duran sevimli bir ördək idi.

Sevimli ördək: Salam, mənim səsimi eşitdin, məni sevdiyin üçün çox təşəkkür edirəm. Gözəl görünüşlü olmağımızdan başqa, digər əhəmiyyətli xüsusiyyətlərimizin də olduğunu bilirdinmi?

Serkan: Xeyr, amma çox istəyirəm ki, izah edəsən.

Sevimli ördək: Bizim çox sürətli uça bilən quşlardan olduğumuzu bilirdinmi? Ördəklər uçarkən saatda 50 km-dən də çox məsafə qət edə bilərlər. Həmçinin yırtıcı heyvanlara yem olmamaq üçün uçarkən davamlı istiqamətimizi dəyişdirərik. Suya baş vurmağımız lazım gəldikdə, bunu o qədər sürətli bir şəkildə edərik ki, ovçular üçün çox çətin bir hədəf olarıq.

Serkan: Bu, həqiqətən də bir quşa görə olduqca sürətli bir uçuşdur, deməli düşmənləriniz sizi bu qədər sürətli uçmağa məcbur edir, eləmi?

Sevimli ördək: Bəli Serkan, sənə bir nümunə verim, bizim yoldaşlarımızdan olan buz ördəkləri maraqlı bir ov etmə bacarığına sahib olan yırtıcı qağayılara qarşı həmişə ayıq vəziyyətdədirlər. Çünki qağayılar, buz ördəklərinə fasiləsiz hava hücumları edərək, onları həmişə suya baş vurmağa məcbur edərlər. Ördəklər bunu nəfəssiz və çarəsiz bir şəkildə su səthinə çıxana qədər davam etdirərlər. Daha sonra başlarına bir dimdik zərbəsi endirərək onları ovlayarlar. Lakin bu mübarizədə həmişə qalib gələn tərəf qağayılar olmaz. Buz ördəklərinin də özlərinə xas qorunma üsulları vardır. Göydə bir qağayı görüldüyü vaxt, ördəklər dərhal böyük qruplar halında bir yerə cəmləşirlər. Beləcə qağayının çox sayda girib-çıxan ördəklərin arasından hər hansı birini yorulana qədər təqib etməsi qeyri-mümkün hala gəlir.

Serkan: Ördəklər necə də ağıllıymış, bəs bütün bunları necə edə bilirlər?

Sevimli ördək: Bunun cavabı çox aydındır Serkan, ördəkləri və digər bütün canlıları yaradan Allahdır və onlara, özlərini necə qoruyacaqlarını da Allah ilham edir.

Serkan: Çox təşəkkür edirəm sevimli ördək, mənə bu gün çox faydalı məlumatlar verdin və Rəbbimizin ayəsini xatırlatdın, təkrar görüşmək üzrə.

Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi?

(Nəhl surəsi, 17)

## Əli ilə dəvəquşu

Əli bir tərəfdən yemək yeyir, bir tərəfdən də televizordakı cizgi filmini izləyirdi. Çizgi filmdə bir itdən qaçan böyük bir dəvəquşu vardı. Dəvəquşu o qədər sürətlə qaçırdı ki, bu sürət sayəsində xilas oldu və yuvasına yoldaşlarının yanına çatdı. Əli dəvəquşlarını yalnız başlarını quma basdıran quşlar zənn edirdi. Bu qədər yaxşı qaçışçı olduqlarını bilmirdi.

Dəvəquşu: Deməli, bizim yaxşı bir qaçışçı olduğumuzu bilmirdin.

Əli televizora bir qədər də yaxınlaşdı və dəvəquşuyla danışmağa başladı:

Əli: Adından aydın olduğu kimi sən bir quşsan. Əlbəttə ki, bu qədər sürətli qaçmağın məni təəccübləndirdi. Həm də bu böyük bədəninlə...

Dəvəquşu: Haqlısan. Biz dünyadakı ən böyük quşlardanıq. Boyumuz insanlardan daha uzundur. Məsələn, mən təxminən 2,5 metr uzunluğunda və orta hesabla 120 kilo ağırlığındayam. Bizlər uça bilmərik. Amma Allah bizə düşmənlərimizdən qaça bilməyimiz üçün başqa bir xüsusiyyət vermişdir. Uzun qıçlarımızla çox sürətlə qaçarıq, hətta o qədər sürətlə qaçarıq ki, heç bir insan qaçaraq bizə çata bilməz. Bizlər heyvanlar aləmindəki ən sürətlə qaçan iki qıçlı heyvanlarıq və 1 saatda təxminən 70 kilometrlik bir sürətə çata bilərik.

Əli: Səhv görmürəmsə ayağında yalnız iki barmaq var, doğrudurmu?

Dəvəquşu: Bəli. Bizim ayaqlarımızda yalnız iki barmağımız vardır. Üstəlik bu barmaqların biri digərindən çox böyükdür. Və biz yalnız bu böyük barmaqlarımızın üzərində qaçarıq. Gördüyün kimi hər canlını yoxdan və nümunəsiz olaraq var edən Allah biz dəvəquşlarını da bu şəkildə yaratmışdır. Bizə həyatımız üçün lazım olan bir çox xüsusiyyət vermişdir. Bildiyin, tanıdığın quşlardan fərqli o qədər çox xüsusiyyətimiz var ki...

Əli: Çox haqlısan. Yaxşı məni bu sual maraqlandırır, balalarınızı necə dünyaya gətirirsiniz?

Dəvəquşu: Bəli Əlican, biz nə qədər böyüyüksə yumurtalarımız da o qədər böyükdür. Bu nəhəng yumurtalar üçün əvvəlcə qumda geniş bir çuxur qazar və bura bütün yumurtaları yerləşdirərik. Bir dəfədə 10-12 ədəd yumurta yumurtladığımızdan çuxurun böyüklüyünü də ona görə tənzimləməliyik. Yəni, olduqca geniş bir çuxur qazırıq.

Əli: Yaxşı bəs niyə bu çuxurları xüsusilə də qumda qazınırsınız?

Dəvəquşu: Əgər çuxuru, qumda deyil, torpaqda qazsaydıq, bu çox vaxt aparardı. Həm də çox yorulmağımıza səbəb olardı. Qumun daşınması, torpağa görə daha asandır. Qumu əlinlə belə eşələyə bilərsən. Amma torpaq üçün kürək lazımdır. Məhz buna görə də, qumu seçərik. Beləcə həm daha tez, həm də daha az yorularaq işimizi görə bilərik.

Sonra da yumurtaların üstünü asanlıqla yenə qumla örtərik. Bilirsən ki, dünyada çox müxtəlif, milyonlarla sayda canlı var. Biz bunlardan yalnız biriyik. Bütün canlılar bizim kimi

mükəmməl xüsusiyyətlərə sahibdir. Hamımızı Allah yaratmışdır. Etdiyimiz hər şeyi bizə öyrədən Allahdır.

Əli: Səni tanıdıqca Allaha olan yaxınlığım və hörmətim daha da artdı. İzah etdiklərin üçün təşəkkür edirəm. Əlvida.

# BUNLARI BİLİRSİNİZMİ?

**Balıqlar uça bilərmi?**

Uçan balıqlar, quşlar kimi qanadlarla uçmazlar, yalnız qanada bənzər üzgəcləri üzərində sürüşərlər. Saatda ən azı 56 kilometr sürətə sahib olarlar. Bu kiçik balıqlar, üzgəclərini yayaraq və quyruqlarını sudan qaldıraraq suda daha da sürətli hərəkət edə bilərlər. Bu yolla su üstündə sürüşərlər.

**Üzən quş qarabataq**

Suya hündürdən baş vuran dəniz quşu növlərindən biri olan qarabataqların geniş, pərdəli ayaqları vardır. Bu ayaqları dənizin səthində və ya altında üzmək üçün onlara xüsusilə olaraq Allah vermişdir. qarabataqlar həmçinin suya baş vurarlar. Dimdikləriylə balıq tutmaq üçün dənizə daxil olar və çox vaxt müəyyən bir müddət ortaya çıxmadan dənizin altında qalaraq uzun bir məsafə boyunca üzərlər.

# Can ilə bal xoşlayan sevimli ayı

Can hər səhər olduğu kimi, məktəbə getməzdən əvvəl səhər yeməyini yemək üçün oturmuşdu. Anası çayı dəmləyərkən, Canın gözü bal bankasının üzərindəki sevimli ayı şəklinə toxundu. Şəkildəki ayı Cana səsləndi:

Ayı: Salam Can! Görünür ki, sən də balı ən azı biz ayılar qədər sevirsən...

Can: Bəli. Anam hər səhər yeməyimdə mənə bal verər. Bəs siz bu gözəl yeməyi hardan tapırsınız?

Ayı: Canlıların bütün ehtiyaclarını ən yaxşı şəkildə təmin edən Rəbbimizin biz ayılara verdiyi uzun burun hesabına tapırıq. Bu burunla iyləri çox yaxşı hiss edər və yeməklərimizi asanlıqla taparıq.

Can: Bəs bal şanını tapdığınız vaxt arıların öhdəsindən necə gəlirsiniz?

Ayı: Şanı tapdıqda pəncəmizlə bir-iki dəfə iti vurmaqla bütün arıları qaçırar, sonra da şandakı balı nuşcanlıqla yeyərik. Amma sən əsla bunu etməyə cəhd etmə yoxsa arılar hər yerindən sancar və xəstələnərsən. Biz ayılarsa, Rəbbimizin lütfü olan qalın kürkümüzə hesab arıların iynələrindən qorunarıq.

Can: Məni bir sual maraqlandırır. Siz ayılar qış yuxusuna getdiyiniz vaxt heç acmırsınızmı?

Ayı: Bizlər qış yuxusuna getmədən əvvəl bol-bol yemək yeyərik. Dərimizin altındakı yağ təbəqəsini artırmaq üçün bol miqdarda fıstıq qozası və şabalıd istehlak edərik. Beləcə bədənimizdə yağ saxlayarıq. Çünki yazda sığınacaqlarımızdan çıxdığımız vaxt xeyli arıqlamış olarıq. Bir insan bu qədər arıqlasa dərhal ölər. Halbuki biz ayılar bədən ağırlığımızın çoxunu itirsək belə həyatımızı davam etdirə bilərik. Əlbəttə ki, biz yatmadan əvvəl bədənimizə yağ toplamağımızın lazım olduğunu özümüz düşünə bilməzdik. Bizim, yatmadan əvvəl bu şəkildə bol yemək yeməyimiz ancaq uca Rəbbimizin ilhamıyladır.

Can: Həqiqətən də düşünən insanlar üçün yer üzündəki hər canlı Allahın üstün yaradıcılığının dəlillərindəndir. Bunu mənə xatırlatdığın üçün çox təşəkkürlər sevimli dostum...

“Dur Can! Oğlum tez dur məktəbə yubanacaqsan!”

Can anasının səsiylə diksindi. Balını nuşcanlıqla yeyərkən ayılar haqqında düşündü və onları qüsursuz şəkildə yaradan, sonsuz şəfqət sahibi Allaha şükür etdi.

**Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır.**

**(İsra surəsi, 44)**

## Seda ilə kirpi

Seda ailəsiylə birlikdə gəzintiyə çıxdığı vaxt, ətrafı dolanmağa çıxmışdı. Gəzdiyi yaşıllıq ərazilər Sedanın çox xoşuna gəlmişdi. Ətrafda gəzişərkən gözünə iti iynələrlə dolu bir top yumağı sataşdı. “Yaxşı ki, səni əzmədim, yoxsa bu iynələr məni çox incidə bilərdi” deyə öz-özünə deyindi. Top yumağı yavaşca açıldı və səsləndi:

Kirpi: Haqlısan Sedacan, iynələrimlə istəməyərək də olsa, səni incidə bilərdim.

Seda: Deməli, burada bir kirpi var! Sənin bədəninin niyə belə iti iynələrlə örtülmüş olduğu məni çox maraqlandırır.

Kirpi: Allah bu iynələri özümü düşmənlərimdən qorumağım üçün vermişdir. Təhlükə olduqda bir top kimi diyirlənər, tikanlarımla özümü müdafiə edərəm.

Seda: Bildiyimə görə bəzi heyvanlar qış yuxusuna gedir. Bəs sən?

Kirpi: Soyuq havaları elə də çox sevmərəm. Qışda temperatur 13 dərəcədən aşağı düşən kimi qış yuxusuna gedərəm. Uca Allah qış ərzində məni yuxu halında saxlayar, yazın

gəlməsiylə təkrar oyanar və həyatıma davam edərəm. Bu tamamilə Allahın ilhamıyladır. Yoxsa qışda həyatın tələblərinin daha çətin olacağını, bu müddət ərzində yatmağımın həyatda qalmaq üçün daha faydalı olacağını özüm düşünə bilməzdim. Uca Allah Quranda belə buyurur:

**Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir. Həqiqətən, bunda eşidən kəslər üçün ibrətamiz dəlillər vardır. (Rum surəsi, 23)**

Gördüyün kimi, bütün canlılar kimi Allah bizə də, ən uyğun vaxtda ruzimizi axtarmağımızı xəbər verir.

Seda: Bir sənədli filmdə sənin böyük bir aslan qarşısındakı cəsarətli döyüşünü izləmişdim. Necə olur ki, aslandan qorxmursan?

Kirpi: Allahın nemət olaraq bəxş etdiyi bədənimdəki bu tikanlar hesabına ən təhlükəli düşmənlərimlə belə cəsarətlə mübarizə apara bilərəm. Bir aslan hücum etdikdə sürətlə qaçaram. Uyğun bir yerdə qəflətən dayanaraq bədənimin arxa tərəfini yüngülcə qaldırıb oxlarımı aslana tərəf yönəldərəm. Əgər aslan dişləriylə dişləyərək məni tutmağa çalışsa, oxlarım ağzına və yanaqlarına bataraq, sağalması qeyri-mümkün olan yaralar açar.

Aslan heç bir şey yeyə bilməz hala gələr və bir müddət sonra da ölər. Şübhəsiz ki, bu ancaq uca Rəbbimin mənə verdiyi ağıl və döyüş bacarığına görədir. Mənə həyatda qalmaq üçün ən uyğun xüsusiyyətləri verən, məni yaradan Odur.

Seda: Haqlısan kirpi qardaş.

Allahın heyvanları bu qədər müxtəlif şəkildə yaratması hər baxdığım şeydə Allahın ucalığını və mükəmməl yaratmasını görə bilməyimə kömək edir. Bu gözəl söhbət üçün təşəkkür edirəm.

Kirpi: Əlvida dostum.

# Tolqa ilə nəhəng qütb ayıları

Tolqa ilə anası yay tətili üçün hara gedəcəklərinə qərar verməyə çalışırdılar. Anası bir səyahət agentliyinə gedib müxtəlif ölkələrin təqdimat kitabçalarına baxaraq qərar vermələrini təklif etdi və birlikdə bir səyahət agentliyinə getdilər. Ofisə girər-girməz, divarlardan asılmış olan, daha əvvəl görmədikləri yerlərə aid plakatlarla qarşılaşdılar. Anası səlahiyyətli şəxslərlə danışarkən, Tolqa da tək-tək plakatları araşdırmağa başladı.

Tolqa bir plakatın qarşısında fikrə gedib düşünərkən bir səslə diksindi:

Qütb ayısı: Ey! Tolqa salam! Niyə ananı da götürüb bura gəlmirsən?

Tolqa başını səsin gəldiyi istiqamətə tərəf çevirdi. Səslənən dərhal yanında asılmış plakatdakı qütb ayısıydı.

Tolqa: Salam! Mən də səni böyük bir qardan adam zənn etmişdim!

Qütb ayısı: Haqlısan iri cüssəmiz və ağ tüklərimizlə qardan adama oxşayırıq. Ancaq əminəm ki, 800 kiloluq çəkimiz və 2,5 metrlik boyumuz ilə bir qardan adamdan xeyli böyüyük.

Tolqa: Səni və ailəni daha yaxından tanımaq üçün oraya gəlmək istəyərdim. Amma bildiyimə görə sizin yaşadığınız yerlər çox soyuqdur.

Qütb ayısı: Haqlısan. Bizlər Şimal Qütbü, Şimali Kanada, Şimali Sibir, Antarktida kimi dünyanın ən soyuq ərazilərində yaşayarıq.

Tolqa: Bəs necə olur ki, heç üşümürsünüz?

Qütb ayısı: Bizim bədənimiz bütün xüsusiyyətləriylə yaşadığımız mühitə görə nəzərdə tutulmuşdur. Sərt şaxtalara, buzlaqlara və qar fırtınalarına baxmayaraq, Allahın yaratdığı bir möcüzə olaraq, dərilərimizin altında olan qalın bir yağ təbəqəsi bizləri soyuqdan qoruyar. Həmçinin yenə xüsusi olaraq yaradılmış kürklərimiz qalın, sıx, uzun və qabarıqdır. Beləcə heç üşümərik. Allah bizləri yaşayacağımız iqlimin xüsusiyyətlərinə görə yaratmışdır. Bizim niyə Afrikada çöldə yaşamadığımızı heç düşündünmü? Bir düşün görək! Səhrada yaşasaydıq qalın kürkümüz səbəbiylə istidən qovrulub ölərdik. Bu, Allahın hər canlını yaşadığı mühitə uyğun olaraq yaratmış olduğunun nümunələrindən biridir.

Tolqa qütb ayısını gördüyünə görə onun haqqında maraqlandığı hər şeyi soruşmağa başladı:

Tolqa: Bildiyimə görə ayılar qış yuxusunu çox sevir. Bu siz qütb ayıları üçün də keçərlidirmi?

Qütb ayısı: Xeyr, sevimli dostum. Bizlər digər ayılardan fərqli olaraq qış yuxusuna getmərik. Yalnız dişi olanlar, xüsusilə də hamilə olanlarımız xeyli vaxt çəkən qış yuxusuna gedərlər.

Tolqa: Bəs yeni doğan balalar qidalarını haradan tapırlar?

Qütb ayısı: Uca Rəbbimizin "Rəzzaq", yəni ruzi verən sifətinin bir nəticəsi olaraq yeni doğan balalar üçün ehtiyac duyduqları qida hazır vəziyyətdədir. Ana qütb ayısının südü, balaları gözləyir.

Tolqa: Balalar ancaq südlə mi qidalanırlar?

Qütb ayısı: Bəli. Ana, qütb ayısının südünün tərkibində çox yüksək miqdarda yağ vardır. Bu yağlı süd balaların ehtiyacını ən gözəl şəkildə ödəyir. Beləcə balalar çox tez böyüyüb, yazda içlərindən çıxmağa hazır vəziyyəətə gəlirlər.

Tolqacan, nəzərə alarsan ki, buzların arasında yaşadığımız, həmçinin də araşdırma qabiliyyətinə sahib olmadığımız üçün balamız ilk doğulduqda nə kimi qidalara ehtiyacının olduğunu bilmərik. Bununla yanaşı bütün xüsusiyyətləriylə ən müasir fabriklərdə belə istehsal olunmayan bu südü bizim öz iradəmiz və səyimizlə öz bədənimizdə hazırlamağımız qətiyyən mümkün deyil. Bu həqiqət bizə Allahın yaradılışındakı mükəmməlliyi aydın şəkildə göstərir.

Tolqa: Haqlısan dostum. İnsan bir az düşündükdə ətrafında hər an böyük bir möcüzənin baş verdiyini başa düşə bilər. İnsanın öz bədənində belə hər saniyə milyonlarla möcüzə baş verir. İnsan bədənindəki qüsursuzca bir möcüzə olaraq yaradılmış hər sistem, hər orqan Allahın üstün güc və qüdrətinin ayrı bir nümunəsidir.

Qütb ayısı özündən bəhs etməyə davam etdi:

Qütb ayısı: Yaxşı, sənə bir sual verim: Qütb ayılarının çox yaxşı bir üzgüçü və dalğıc olduqlarını bilirdinmi?

Tolqa: Deyəsən zarafat edirsən. Siz üzməyi də mi bilirsiniz? Bu ağır cüssənizlə və bu dondurucu suda necə üzə bilirsiniz?

Qütb ayısı: Xeyr, zarafat etmirəm, biz qütb ayıları suda çox yaxşı üzər və ona baş vurarıq. Üzərkən ön ayaqlarımızdan istifadə edərik. Sonsuz mərhəmət sahibi Allah bizim asanlıqla üzüb ov edə bilməyimiz üçün ayaqlarımızı bir kürək kimi istifadə edəcək şəkildə, ayaq barmaqlarımızın arasını ördək ayağı kimi pərdəli olaraq yaratmışdır. Həmçinin Allah bizi, ov etməyimizi asanlaşdırmaq üçün suyun içində olarkən burun dəliklərimizi bağlayıb, gözlərimizi açıq saxlaya biləcəyimiz şəkildə yaratmışdır.

Tolqacan, gördüyün kimi, Allah bizi müxtəlif şərtlərdə varlığımızı davam etdirə biləcək sistemlərlə qüsursuzca yaratmışdır. Bu xüsusiyyətləri vaxt ərzində qazanmağımız ya da bu xüsusiyyətlərə təsadüfən sahib olmağımız qeyri-mümkündür. Bizə suyun içində lazım olduğu kimi davranmağı öyrədən Allahdır.

Tolqa: Bəs buz kimi soyuq suyun içində heç üşümürsünüzmü?

Qütb ayısı: Bizim üşümək kimi bir problemimiz yoxdur. Siz insanlar ayağınızı və ya əlinizi bir buzun üstündə bir neçə dəqiqə saxlasanız, bir müddət sonra soyuğa dözə bilməyib çəkmək məcburiyyətində qalarsınız. Halbuki biz buzun soyuqluğunu belə hiss etmərik. Çünki Allah ayaqlarımızı qalın kürklə örtülmüş halda, soyuqdan təsirlənməyəcək şəkildə yaratmışdır. Əgər ayaqlarımız insan dərisi kimi bir dəriylə örtülmüş olsaydı, əsla bu soyuq mühitdə yaşaya bilməzdik.

Qütb ayısının izah etdiklərindən sonra Tolqa artıq Allahın sonsuz güc sahibi olduğunu daha yaxşı başa düşürdü. Sonra da Tolqa yay tətilində getdikləri kəndi xatırladı. Bütün yay boyu dənizə girmişdi. Su nə qədər də soyuq idi. Bir də qütb ayılarının girdikləri soyuq suyu düşündü. Allahın bu heyvanları bu soyuq suya qarşı dayanıqlı şəkildə yaratmış olduğu çox aydın idi. Bir az düşündükdə hər canlının yaşadığı mühitə uyğun bir bədən formasıyla yaradılmış olduğunu dərk etdi. Məsələn, dəvələr də çöl istisinə dayanıqlı bir şəkildə xüsusi olaraq yaradılmışlar... Tolqanın bu düşüncələrini yoldaşı qütb ayısı yekunlaşdırdı:

Qütb ayısı: Tolqacan, bizim rəngimizin niyə ağ və ya sarımtıl bir tonda olduğunu bilirsənmi?

Tolqa: Bilmirəm, daha əvvəl bunu heç düşünməmişdim. Niyə ki?

Qütb ayısı: Bu ağ rəngimiz, yaşadığımız soyuq, buzlu mühitdə düşmənlərimizdən qorunmağımıza kömək edər. Bunun hesabına yüzlərlə kilometrlik dümağ buzlaqlarla eyni rəngdə olduğumuz üçün nadir hallarda seçilərik.

Tolqa: Necə də məntiqlidir... Düşünürəm ki, əgər rənginiz bir qarğa qədər qara ya da tutuquşular kimi rəngbərəng olsaydı onda gizlənməyiniz demək olar ki, qeyri-mümkün olardı. Nəticə etibarilə də bir çox təhlükə ilə tez-tez qarşılaşırdınız.

Qütb ayısı: Bəli Tolqacan. Məhz belə barəsində heç düşünmədiyimiz, görməyə çox vərdiş etdiyimiz o qədər çox şey var ki... Halbuki Allah hər şeyi bir hikmətlə yaratmışdır.

Tolqa Allahın özünə düşünmə qabiliyyəti verdiyinə şükür etdi. *"Əgər Allah diləməsəydi, mən də bu fani dünya həyatında Allahın üstün elm və gücünün fərqində olmadan qəflət içində əylənə bilərdim"* deyə öz içindən danışdı.

Tolqa qütb ayısı ilə apardığı bu söhbətlə düşünərək yaşamağın nə qədər əhəmiyyətli olduğunu başa düşmüşdü. Öyrəndiyi hər yeni məlumat Tolqanın Allaha olan sevgisini və hörmətini artırırdı. Buna görə də qütb ayısı haqqında daha çox şey öyrənmək istəyirdi.

Tolqa: Əminəm ki, burnunuz da bizimkindən yaxşı iy bilir, elə deyilmi?

Qütb ayısı: Bəli. Biz qütb ayılarının qoxubilmə duyğusu elə kəskindir ki, 1,5 metr qalınlığındakı qar təbəqəsinin altında gizlənən bir suitinin iyini belə asanlıqla hiss edə bilərik. Bilirsən ki, uca Rəbbimiz yalnız bizlərə deyil, bütün canlılara bənzər şəkildə üstün xüsusiyyətlər vermişdir.

Tolqa: Yer üzündəki hər canlıda Allahın üstün elm və gücünün bir dəlili olduğunu bilirdim. Yenə də bu canlılar haqqında ətraflı məlumat topladıqca Allahın üstün yaratmasına olan heyranlığım artır.

Tolqa qütb ayısı ilə söhbət etməkdən doya bilmirdi. Onun haqqında hər şeyi öyrənmək istəyirdi. Suallarına davam etdi:

Tolqa: Yaxşı, görəsən mənim bilmədiyim başqa nə kimi xüsusiyyətləriniz var?

Qütb ayısı: Biz qütb ayılarının yay-qış istifadə etdiyi maraqlı taktikalar vardır. İndi, bizim dümağ tüklərimizlə qardan adama bənzər halımızı gözünün qabağına gətir. Səncə dümağ

qarın içinə uzansaq, ondan seçilə bilərikmi? Bəli! Əlbəttə ki, əgər bu suala yalnız tüklərimizi düşünərək cavab verdinizsə, "xeyr seçilməzsiniz" deyə bilərsən. Ancaq, biz qütb ayılarının qara rəngli burnunu yaddan çıxartma. Bu burun, bizim qar içində tamamilə kamuflyaj olmamıza mane olar. Amma, biz nə edərik, bilirsənmi? Olduqca ağıllı bir hərəkətlə ağ rəngli qabaq pəncələrimizlə burnumuzun üstünü örtərik. Beləcə rəng fərqini aradan qaldırırıq. Qarın içində tamamilə gizlənmiş bir şəkildə ovumuzun bizə tərəf yaxınlaşmasını gözləyərik.

Tolqa: Bu, həqiqətən də çox ağıllı bir hərəkətdir!

Qütb ayısı: Bəli Tolqacan. Ayı özünün ağ rəngdə olduğunu və ətrafının da eyni rəngdə buzlaqlarla örtülmüş olduğu üçün özünü kamuflyaj edə biləcəyini, yəni gizlədə biləcəyini dərk edə bilir. Üstəlik qütb ayısı kamuflyaj olmasına mane olan yeganə şey olan qara rəngdəki burnunun üstünü örtməsinin lazım olduğunu düşünər. Əlbəttə ki, sənin də ehtimal edəcəyin kimi, qütb ayısının bir neçə dəfə ovdan əli boş qayıtdıqdan sonra, oturub nə etməii olduğunu düşünərkən burnunun üstünü örtməsinin lazım olduğunu düşünməsi qeyri-mümkündür! Ayılar yalnız Allahın özlərinə ilham etdiyi kimi hərəkət edirlər. Allah onları bu şəkildə yaratmışdır. Onlar da, digər bütün canlılar kimi Allahın nəzarəti altındadır.

Tolqa evə getdikdə anasına bu sevimli heyvanlar haqqında öyrəndiklərini izah edib, Allahın qütb ayılarında təcəlli edən üstün yaratma sənətini izah etməyə qərar verdi. Sevimli dostuna bu gözəl söhbət üçün təşəkkür edib anasının yanına qayıtdı.

**Biz bu Quranda insanlar üçün hər cür məsəllər çəkdik ki, bəlkə, düşünüb dərk edələr.**

**(Zumər surəsi, 27)**

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar.**

**(Bəqərə surəsi, 117)**

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!**

**(Ali İmran surəsi, 191)**

# Ömər ilə balıq

Ömər və atası dan yeri ağarmadan oyanmış və balıq ovlamağa getmişdilər. Ömər günün doğmasını atasıyla birlikdə balıq tutarkən seyr etməyi çox sevirdi. Səma səhərlər inanılmaz bir gözəlliyə sahib olurdu, hər dəfə günəşin doğuşunu seyr etdikcə ürəyini eyni həyəcan bürüyürdü...

Atası qarmaqlardakı yemləri yeniləyərkən, Ömər kiçik gəmilərin kənarında oturub dənizi seyr edirdi. Birdən arxasından gələn bir səs eşitdi:

Balıq: Sabahın xeyir olsun kiçik dostum!

Ömər: Ey! Sənin də sabahın xeyir kiçik balıq! Deməli, sən də tez oyandın və artıq üzməyə başladın. Mənim üzməyi hələ yeni öyrənməyimə baxmayaraq, siz balıqların doğular-doğulmaz üzə bilməyiniz məni çox maraqlandırır. Bunu necə bacarırsınız?

Balıq: Əslində biz balıqların üzə bilmək üçün elə də bir hərəkət etməyimizə ehtiyac yoxdur, bunun üçün quyruğumuzu sağa-sola sallamağımız kifayətdir. Məhz suyun içindəki bu rahat hərəkətlərimiz cəld onurğalarımız və bədənimizdəki bəzi sistemlər hesabına reallaşar.

Ömər: Yəqin ki, üzərkən çox enerji sərf etməlisiniz.

Balıq: Çox haqlısan. Bir düşün, suyun içində olduğun vaxt asanlıqla yeriyə bilərsən, yoxsa quruda olarkən? Məhz biz balıqlar, suyun içində yaşaya bilmək, üzə bilmək üçün xüsusi əzələ və onurğaya malik olaraq yaradılmışıq. Onurğamız bizim şaquli vəziyyətdə durmağımızı, həmçinin üzgəclərimizin və əzələlərimizin özünə birləşməsini təmin edəcək bir quruluşdadır. Əgər belə olmasaydı suda hərəkət etməyimiz qeyri-mümkün hala gələrdi. Kiçik dostum gördüyün kimi, Allah hər bir canlını olduğu kimi biz balıqları da qüsursuz bir məxluq olaraq yaratmış, bizlərə yaşadığımız mühitə ən uyğun xüsusiyyətləri vermişdir.

Ömər: Bir də ancaq sağa-sola üzməklə kifayətlənməyib bəzən suyun dərinliklərinə qədər enə bilirsiniz, bəs bunu necə edirsiniz?

Balıq: Bu hərəkəti də yenə Allahın biz balıqlara verdiyi başqa bir bədən sistemi sayəsində edərik. Biz balıqların bədənlərində hava kisələri vardır. Bu kisələri hava ilə dolduraraq dərinlərə enə bilər və ya havanı boşaldaraq su səthinə doğru çıxa bilərik. Əlbəttə ki, Allahın diləməsi xaricində bizim bu xüsusiyyətləri öz-özümüzə meydana gətirməyə əsla gücümüz çatmazdı.

Atası gəminin arxasında işlərə başı qarışmışkən Ömər balıqla söhbətinə davam etdi:

Ömər: Çox sıx yerlərdə olduğumu düşünürəm də, hər kəsin eyni anda sağa-sola hərəkət etməsi lazım gəlsə, həm də ətraf zülmət qaranlıq olsa, heç kimin bir-birinə toqquşmadan tərpənməsi qeyri-mümkün olardı. Bəs insanların bacara bilmədiyi bu hərəkəti siz balıqlar necə bacarırsınız?

Balıq: Özünü ətrafa vurmadan hərəkət edə bilmək üçün ətrafı görməlisən. Halbuki biz balıqlar belə bir qəbul etmə sisteminə ehtiyac duymuruq. Bizim "lateral xətt" deyə adlandırılan mükəmməl bir duyğu sistemimiz vardır. Çöldə baş verə biləcək ən kiçik bir təzyiq dəyişikliyi, su dalğalanması, su axının gücünə dərhal lateral xəttlərimiz sayəsində müəyyən olunar. Bunun hesabına titrəyişləri hiss edib, bir düşmənin və ya maneənin varlığını onu görmədən başa düşə bilərik. Bu lateral xəttlərimiz xüsusilə də yaxınlıqdakı aşağı tezlikli vibrasiyaya həssasdırlar. Məsələn sahildəki addımları və ya suya düşən hər hansı bir cismi dərhal fərq edər və buna görə tədbir görərik.

Ömər: İndi başa düşürəm. Mən suyun kənarında mahnı oxuya və ya radioyaya qulaq asa bilərəm, bundan narahat olmursunuz amma suda yaratdığım ən kiçik bir titrəşmələrdən, məsələn körpünü silkələdiyim və ya dənizə bir daş atdığım vaxt, hamınız yox olursunuz!

Balıq: Bəli Ömərcan, lateral xətt adı verilən duyğu sistemimiz həqiqətən çox mürəkkəb bir quruluşdadır. Belə bir sistemin ixtiyari təsadüflərlə, vaxt ərzində mərhələ-mərhələ meydana gəlməsi, əlbəttə ki, qeyri-mümkündür. Bu sistemdəki bütün xüsusiyyətlərin eyni anda meydana gəlmiş olması lazımdır. Məhz bu sistem Allahın ağlının və sənətinin əsərlərindən biridir.

Ömər balığa bir az daha yaxından baxdıqda onun göz qapaqlarının olmadığını fərq etdi, təəccüblə soruşdu:

Ömər: Aaaa, sənin göz qapaqların yoxdur. Bəs gözünü necə qoruyursan?

Balıq: Haqlısan, biz balıqlarda insanlardakı kimi göz qapaqları yoxdur. Biz dünyaya gözlərimizin üstünü örtən şəffaf örtük arxasından baxarıq. Bu pərdəni dalğıcların sualtı eynəklərinə bənzədə bilərik. Çox vaxt olduqca yaxınlığımızdakı obyektləri görməyimiz lazım gəldiyindən gözlərimiz də bu ehtiyaca görə yaradılmışdır. Gözlərimiz yaxınlıqdakı obyektləri görmək üçün tənzimlənib. Uzağa baxmaq istədikdə isə, bütün lens (mərcək) sistemi gözün içindəki xüsusi bir əzələ mexanizmi geriyə tərəf çəkilər. Məhz biz balıqların kiçik gözləri belə əslində belə bir mürəkkəb quruluşa malikdir. Şübhəsiz ki, bu, Allahın üstün yaradıcılığının dəlillərindən biridir.

Ömərin ağlına keçən gün televizorda izlədiyi bir sənədli film gəldi. Orada müxtəlif rəng və şəkillərdə bir çox balıq görmüşdü. Bütün bu balıqların möhtəşəm rəngləri və fövqəladə xüsusiyyətləriylə Allahın üstün yaradışını çox gözəl sübut etdiklərini düşündü. Balıq bu kiçik, ağıllı dostuna özü haqqında məlumatlar verməyə davam etdi:

Balıq: Bilirsənmi? Kiçik dostum, biz balıqların bir çoxunun bədənləri olduqca dayanıqlı bir dəri ilə örtülmüşdür.

Ömər: Bəli, pulcuqlu bir dəriniz var, bunu görmüşdüm. Amma çox da qalın görünmür...

Balıq: Bu dəri alt və üst olmaqla iki təbəqədən əmələ gələr. Üst dəri daxilində, suyun içindəki hərəkətimiz əsnasında sürtünməni ən aşağı səviyyəyə endirməyə yarayan "mukus" adlı maddəni ifraz edən vəzilər mövcuddur. Bunun hesabına biz daha sürətlə hərəkət edə bilərik. Həmçinin bu sürüşkən özəlliyimizlə düşmənlərimiz tərəfindən ələ keçirilməliyimiz də

olduqca çətinləşər. Həm bu mukusun başqa bir xüsusiyyəti isə bizi xəstəliklərə qarşı qorumasıdır.

Ömər: Bəli, bir dəfə atamın vedrəsində duran balıqları əlimlə tutmağa cəhd etmişdim amma dərhal əlimdən sürüşüb yerə düşmüşdülər!

Balıq: Dərimizin xüsusiyyətləri bununla da bitməz. Üst dərimizdə keratinə bənzər xüsusi bir təbəqə də vardır. Keratin, dərinin alt hissəsindəki yaşlı hüceyrələrin qida və oksigen mənbələrindən uzaqlaşaraq ölmələriylə əmələ gələn sərt və dayanıqlı bir maddədir.

Məhz keratinden ibarət olan bu təbəqə də suyun bədənə girməsinin qarşısını alaraq, bizim daxili və xarici təzyiqi tənzimləməyimizə yardımçı olar. Əgər bu təbəqə olmasaydı su bədənimizə girəcək, təzyiq nizamımız pozulacaq və dərhal öləcəkdik.

Ömər: Deməli, üzərində kimsənin çox düşünmədiyi bir balığın dərisi belə nə qədər əhəmiyyətli xüsusiyyətlərə sahibmiş.

Balıq: Haqlısan. Bax belə Ömərcan, gördüyün kimi balıqların sahib olduqları bütün xüsusiyyətləri onlara verən, kainatdakı hər şeyi yaradan Allahdır. Allah bütün canlıların ehtiyaclarından xəbərdar olandır.

Ömər gəminin arxasından atasının səsləndiyini eşitdi:

Ömərin atası: Dur Ömər, evə qayıtmaq vaxtıdır!

Ömər: Balıq qardaş verdiyin bütün məlumatlar üçün çox təşəkkür edirəm. Sizi hər dəfə fikirləşdikdə Allahın üstün yaradışını yenidən xatırlayıb Rəbbimizə verdiyi bütün nemətlər üçün şükür edəcəyəm.

# DƏNİZ ALTINDAKI RƏNGLİ CANLILAR

### BALIQLAR SUDA NECƏ NƏFƏS ALARLAR?

Balıqların tənəffüs sistemləri bütün canlılardan fərqlidir. İnsanlar nəfəs almaq üçün buruna sahib ikən, balıqlar isə nəfəs almaq üçün qəlsəmələrə malikdir. Bunlarla suyun içindəki oksigendən istifadə edərlər. Həmişə ağızlarından içəri daxil olan su, qəlsəmə yaylarının üstündən arxaya tərəf keçər. Qəlsəmədəki kapilyar damarlar sudakı həll olmuş oksigeni qəbul edib, bədəndəki karbondioksidi suya buraxarlar. Balıqların çoxunda burun dəlikləri vardır, amma heç vaxt bunlardan nəfəs almaq üçün istifadə etməzlər. Burun dəlikləri kiçik kisəciklərə açılar və balıq bunlara dolan sudan iyi hiss edər. Məsələn köpək balıqları ovlarını iylərindən taparlar.

## Kərəm ilə Tolqa

Kərəm ilə Tolqa çox yaxşı dost idi. Kərəmin ata tərəfdən nənəsi Tolqa gillə eyni məhəllədə yaşayırdı. Kərəm yarım il tətilində və yay tətilinin bir hissəsində nənəsigilə getdiyi üçün hər il birlikdə çox uzun bir vaxt keçirirdilər.

Məktəbin ilk dövrü bitmiş, hamı hesabatını almış, tətilin ləzzətini çıxarmağa başlamışdı. Amma havalar çox soyuq olduğu üçün tətilin ilk günlərində çölə elə də çox çıxa bilməmişdilər. Yenə də arada bir çölə çıxıb dostlarıyla görüşür, qısa da olsa oynayırdılar. Bəzən də dostlarından birinin evində toplanıb söhbət edir, analarının hazırladığı kekslərdən və peçenyelərdən yeyirdilər.

Lakin təxminən bir həftə keçməsinə baxmayaraq, Tolqa Kərəmi görə bilmirdi. Onu digər dostlarından soruşdu. Onlar da tətil başladıqdan bəri Kərəmi heç görmədiklərini dedilər. Tolqa, "yəqin ki, havalar çox soyuq olduğu üçün çıxmır, amma qar yağsa mütləq çıxar, çünki Kərəm qarda oynamağı çox sevər" deyə düşündü. Sonra Kərəmə zəng vurmağa qərar verdi.

Eve gedər-getməz dərhal telefona tərəf qaçıb Kərəmin ata nənəsinin evinə zəng vurdu. Telefonu ata nənəsi götürdü. Tolqanı dərhal tanıdı.

Tolqa: Məktəblər bağlandıqdan bəri Kərəmi görə bilmədim. Nigaran oldum, sabah onu görməyə gələcəyəm amma gəlmədən əvvəl telefonla zəng etməyi düşündüm.

Ata nənəsi Kərəmin xəstələndiyini, buna görə özünün yanına gələ bilmədiyini, çox ağır qripə tutulduğu üçün tətil boyu yatıb istirahət etməsinin lazım olduğunu dedi. Həmçinin telefon nömrəsini verə bilərəm, əgər zəng vursan çox məmnun olar dedi.

Tolqa telefon nömrəsini alıb heç vaxt itirmədən Kərəmə zəng vurdu.

Telefonu açan anası "Kərəm bax dostun Tolqa zəng vurur" deyərək telefonu otağında yatmaqda olan Kərəmə verdi.

Kərəm sevinclə telefonu aldı. Tolqaya “zəng vurduğun üçün çox məmnun oldum, çox sevindim” dedi.

Tolqa tətildə onu görə bilmədiyi üçün çox narahat olduğunu, bir neçə gün gözləyib sonunda zəng etdiyini, nənəsindən xəstə olduğunu öyrəndiyində çox kədərləndiyini dedi.

Kərəm də ona tətilin ilk günlərində ağır bir qripə tutulduğunu, həkimin tam sağalmadan heç yerə getmə, yataraq istirahət et deməsinə görə evdə qaldığını, tətilini belə keçirmək məcburiyyətində olduğunu izah etdi.

Tolqa, “sağlam olasan, çox kədərləndim. İnşaAllah tezliklə sağalarsan” dedi. Məhəllədəki dostlarının da ondan nigaran qaldıqlarını dedi. Onu narahat edə biləcəyini düşünərək, onu telefonda çox saxlamaq istəmədi.

Kərəm də “zəng etdiyin üçün çox sevindim, dostlara salam de, təkrar zəng etməyi unutma” dedi.

Tolqa təkrar sağlam olasan deyərək telefonu söndürdü. Dostunun xəstələnməsinə, tətili belə keçirəcək olmasına çox kədərlənmişdi.

Tolqanın bu vəziyyətini görən anası maraqlanıb nə baş verdiyini soruşdu. Tolqa dostunun vəziyyətini izah etdi. Tətilini belə keçirəcək olmasına kim bilir nə qədər çox sıxılır, görəsən onun üçün daha başqa nə edə bilərəm dedi.

Anası: Çox uzaq bir yerdə qalmırlar, onu ziyarət etməyə gedə bilərik. Kərəmin anası mənim köhnə dostumdur, çoxdandır görməmişdim, həmçinin onu da görmüş olaram.

Tolqa: Çox yaxşı olar anacan, nə vaxt gedə bilərik.

Anası: Kərəmə zəng vurub nə vaxt boş vaxtının olacağını soruş.

Səhər açlıdıqda Tolqa erkəndən Kərəmə zəng vurdu. Anasıyla birlikdə onu görməyə gəlmək istədiklərini, nə vaxt gələ biləcəyini soruşdu.

Tolqa buna çox sevindiyini, anasının da çox sevinəcəyini, sabah tezliklə onları gözlədiyini dedi.

Tolqa və anası sabahısı gün erkəndən yola düşdülər. Bir neçə saatlıq səfərdən sonra Kərəmin evinə çatdılar. Kərəmin anası onları sevinclə qarşıladı: Gələcəyinizi öyrənincə çox sevindim. Gəlməklə çox yaxşı etdiniz dedi.

Hamısı birlikdə Kərəmin yanına getdilər. Kərəm yatağında onları sevinclə qarşıladı. Vəziyyətini soruşub bir az söhbət etdikdən sonra anaları onları yalnız buraxıb içəri keçdilər.

Bu vaxt Tolqanın diqqətini bir şey çəkmişdi. Kərəm ağır bir xəstəlik yaşamasına və tətilini bu şəkildə yataraq keçirəcək olmasına baxmayaraq olduqca sevincliydi. Vəziyyətindən heç şikayətçi görünmürdü.

Dözə bilməyib soruşdu: Səni çox sıxılmış və kədərli bir halda görəcəyimi düşünürdüm. Mən sənin yerində olsaydım, tətilimi belə keçirməli olacağıma görə bütün əhval ruhiyəm qaçardı. Amma görürəm ki, sən olduqca şənsən, bu vəziyyətdən heç şikayətçi görünmürsən.

Kərəm: Haqlısan. Mən də xəstəliyimin ilk günlərində bunları düşünüb çox sıxılırdım. Sıxıldığımdan ağladığım vaxtlar da olurdu. O günlərdə məni ziyarətə gələn xalamın oğlu Səlim məni bu vəziyyətdə görüncə çox kədərlənmişdi. Bir neçə gün sonra bir az sağaldığımda məni təkrar görməyə gəldi. Yanında bir kitab gətirmişdi, kitabı hələ oxuyub qurtarmadığını, oxuyub qurtardıqda mənə verə biləcəyini amma oxuduğu hissəni mənə də oxumaq istədiyini dedi.

Məmnun olacağımı dedikdə o hissəni mənə də oxudu. Kitabda Allahın hər şeyi müəyyən bir məqsədlə yaratdığı, insanlara əvvəlcə pis kimi gələn şeylərdə əslində bir çox fayda olduğu izah edilirdi. Allaha inanan və Ona təvəkkül edən insanların hər şeydə mütləq bir xeyir olduğunu bilərək hərəkət etmələrinin lazım olduğunu deyirdi.

Bununla əlaqədar bir çox nümunə verilmişdi. Bu nümunələrdən biri də xəstəlik idi. İzah edilənlərdən çox təsirləndim. Kitabda yazdığı kimi həqiqətən ən sadə bir xəstəlik kimi görünən qrip belə insanın nə qədər aciz bir varlıq olduğunu göstərir. Qripə gözlə görülməsi mümkün olmayan bir virus səbəb olur. Ancaq bu kiçik canlı insanı taqətdən salıb yorğun edir. Yeriyə bilməyəcək, hətta danışa bilməyəcək hala gətirir. İnsan yatıb sağalmağı gözləməkdən başqa bir şey edə bilmir.

Tolqa: Haqlısan. İnsan o vəziyyətdə yemək yeyib, dərmanlarını qəbul edib gözləməkdən başqa bir şey edə bilmir.

Kərəm izah etməyə davam etdi:

Kərəm: Xəstələndikdə sağlam olmağın nə qədər böyük bir nemət olduğu aydın olur. İnsan sağlam olarkən, rahatlıqla gəzib qaçıb oynadığı vaxtlar, xəstə halını düşünüb Allaha çox şükür etməlidir. Səhər yuxudan oyandıqda gəzmək, qaça bilmək, heç kimin köməyinə ehtiyac olmadan hər an hər istədiyini edə bilmək Allahın çox böyük bir lütfüdür. Kitabda yazdığı kimi Allah xəstəliyi yaradaraq insanın bunları düşünüb dərk etməsini təmin edir.

Tolqa: Bəli bu izah etdiklərin çox doğrudur.

Kərəm: Məhz bunları düşünəndə məndə artıq kədərlənmədim. Yavaş-yavaş sağalmağa başladığım üçün çox sevinirəm. İnşaAllah məktəb açılana qədər tamamilə sağalaram. Onda sağlam olmaqdan, qaçıb oynamaqdan çox böyük bir zövq alacağam.

Bu vaxtda Tolqanın anası içəri girib və getmək vaxtının gəldiyini dedi.

Tolqa: O kitabı mən də oxumaq istəyirəm. Görəsən oxuyub qurtardıqda mənə də göndərə bilərsənmi.

Kərəm: Əlbəttə ki, oxuyub qurtaran kimi tezliklə göndərərəm.

Evə qayıdarkən Tolqa Kərəmin izah etdiklərini təkrar düşündü. Onu xoşbəxt görmək və izah etdiklərini dinləmək çox xoşuna gəlmişdi. İçindən, “sağlam olmaq həqiqətən də çox böyük bir nemət, qayıtdıqda bunları dostlarıma da izah edəcəyəm” dedi.